Sanki milyon başlı əjdahayam mən,
Tərpənsəm bir anda dağılar aləm.
Özümə baxıram – cılız bir bədən,
Bir qul yumruğuna dözə bilmərəm.

Fəqət taxtın, tacın vahiməsini
O qul uca tutur öz qüvvəsindən.
Azca tərpəndimmi, kəsir səsini,
Dinsə dağ titrəyir onun səsindən.

Neron da, Pavel də, Qacar da, Kir də
Beləcə hökm edib...
Keçib əsrlər...
Edipəm, baxıram dövrəmə bir də,
Mütilər...
Mütilər zağ-zağ əsirlər.

Deyirəm yaxşı ki, səhnədir bura,
Edip paltarında aktyoram mən.
Uzaq olacağam bir saat sonra
Qullar dünyasının mütiliyindən.

Onlara baxdıqca iyrənir ürək,
Önündə əsirlər kralın, serin.
Onlar olmasaydı,
güney qarıtək
Ömrü az olardı müstəbidlərin.

1975

Hər şeyi təzədən başlayaq gəlin

QIZIL TAC KİMİ

Qızım Ülkərə

Heç nə istəmirəm,
Ay dost, quşların
Səhər nəğməsini mənə bağışla.
Bu sübh şəfəqinə vurulmuşların
Bitməz həvəsini mənə bağışla.

Görüm yarpaqların üstə şehi də,
Sükut nəğmə kimi axsın sinəmə.
Saflığın nəfəsi səhər mehi də
Şəfqətli əlini çəksin çənəmə.

Gecə növbəsindən evə qayıdan
O yorğun üzləri ilkin mən görüm.
Göylərdən siləndə gümüş Ayı dan
Yuxusuz gözləri ilkin mən görüm.

Yığım göy üzündən son qaranlığı
Yanağa tökülən qara saç kimi.
Günəşin qızılı hökmranlığı
Qoyulsun başıma qızıl tac kimi.

Kaş ki gözlərimdə gülə dan yeri,
Bir ömrə vermərəm bu ani vaxtı...
Gecə rəngindədi hələ dan yeni,
Ulduzlar oyaqdı, qəmər oyaqdı.

SONUNCU DAYANACAQ

Ulduzlar oyaqdı, qəmər oyaqdı.
Gecə rəngindədi hələ dan yeri,
Ulduzlar içindən bir ulduz axdı,
Şəridə bənzədi uzaqdan yeri.

Büsbütün çəkilib yuxum gözümdən,
Yerimə qor dolub niyə? Bilmirəm.
Bu saat otaqdan çıxacağam mən,
Hara gedəcəyəm? Deyə bilmirəm

Fəqət gedəcəyəm...
Dar dalanları,
Əyri küçələri adlayacağam.
Yuxunun qoynunda məst olanları
Oyaq gözlərimlə odlayacağam.

Otlar arasıyla axan su kimi
Səssiz gedəcəyəm bu gecə yarı,
Şəhərin bir ulduz oğrusu kimi
Əlim uzanacaq göylərə sarı.

Orda – yuxarıda açıq pəncərə
Qaranlıq gözüylə baxacaq mənə.
Beləcə çıxıram hər gün səfərə,
Baş vurub gecənin qəribliyinə.

Gecəni gündüzə qatıb haçaqdır
Gəzirəm...
Taleyim bəlkə oyana...
Eviniz sonuncu dayanacadır,
Mənimçün yol yoxdur burdan o yana.

GÖZLƏRİN

Mənimçün yol yoxdur burdan o yana,
Eviniz sonuncu dayanacaqdır,
Gözlərin salıbdır məni tufana,
Onlar da tufandan qurtaracaqdır.

Qovacaq yolumdan qatı zülməti,
Onlarla güləcək hər arzum mənim.
Mənə bəxş edəcək əbədiyyəti
Bir cüt qara rəngli ulduzum mənim.

Həyat yollarında azsam da bu gün
O gözlər edəcək yolumu bəlli.
Yelkəni daşlara dəysə ömrümün
O gözlər olacaq mənə təsəlli.

O gözlər atəşli vulkan kimidir,
Soyumaz alovu, sönməz ziyası.
O gözlər el qoşan dastan kimidir, –
Yalansız, riyasız, rəngsiz, boyasız.

KƏDƏRİN RƏNGİ

Yalansız, riyasız, rəngsiz, boyasız, –
O gözlər el qoşan dastan kimidir.
Sevinc onun ağı, kədər qarası,
Gözlər yeddi rəngli cahan kimidir.

Rəssamlar çox asan çəkir sevinci,
Vurur rənglərini qızıl səhərin.
Lakin mən tapmışdım bunu birinci:
Rəngi necə olur qəmin, kədərin.

Onu nə Rafael görüb bir zaman,
Nə də Leonardo da Vinçi görüb.
Onu bir cüt gözə çökəndə duman
Mənim bu gözlərim birinci görüb.

Atam evimizdən uzaq düşəndə
İlk dəfə dizimə yamaq düşəndə,
Bir insan əlindən çomaq düşəndə
O rəngi anamın gözündə gördüm.

Qızlar oğlan kimi şinel geyəndə,
Ellər ağ kağıza "qara" deyəndə,
Bu həsrət, bu möhnət beli əyəndə
O rəngi anamın gözündə gördüm.

Ocaq soyuyanda, təndir sönəndə,
Təknə yüngülləşib qova dönəndə,
Şən mahnı susanda, ağı dinəndə
O rəngi anamın gözündə gördüm.

Tale mənim üçün tələ quranda,
Yalançı şahidtək üzə duranda,
Qış məni yandırıb, yay donduranda
O rəngi anamın gözündə gördüm.

Topla rənglərini baharın, qışın,
Qövsi-qüzehi də cala ona sən.
Topla rənglərini torpağın, daşın,
Kədərin rəngini tapa bilməzsən.

Onu bu dünyada mən kəşf etmişəm,
Tapıb ad vermişəm,
O heç itərmi?
Könül xəritəmə mən nəqş etmişəm,
O mənim yeddinci təzə qitəmdir.

Dəyişir yer, səma, səhər rəngini,
Qəm-qüssə rəngini dəyişmir ancaq,
Sən görmək istəsən kədər rəngini
Öz doğma ananın gözlərinə bax...

MƏHƏBBƏTİMİZ

Öz doğma ananın gözlərinə bax
Sən görmək istəsən kədər rəngini.
Birinci o gözlər əks edir ancaq
Tale dəyişirsə əgər rəngini.

Sevənlər bir məna, bir ahəng bilir:
Sevgidə sədaqət, sözdə etibar.
Təbiət yeddi səs, yeddi rəng bilir,
Eşqin bir rəngi var, bircə səsi var.

Əsil məhəbbətçün deməz bir insan
Qoltuq ağacına möhtac şildir o.
Öz himni, öz gerbi, bayrağı olan
Azad ölkə kimi müstəqildir o.

Gəl qalxaq yüksəyə eşqin özündən,
Eşqin özünü də bürüsün heyrət.
Kədərin rəngini ana gözündən
Silər əlləriylə belə məhəbbət.

Gəl eşqi taleyə tapşırmayaq biz,
Dörd yana üz tutur xam kəhər kimi.
Qoy çıxsın orbitə məhəbbətimiz
Səmaya tuşlanan raketlər kimi.

HƏLƏ Kİ...

Səmaya tuşlanan raketlər kimi
Qoy çıxsın orbitə məhəbbətimiz.
Buludsuz açılan bir səhər kimi
Görünsün işimiz, təbiətimiz.

Alaq ovcumuza ürəyimizi,
Görünsün şəkli də, vurğuları da.
Vətən torpağında qalsın izimiz
Bir gün qırılsa da ömür yarıda.

Hələ ki, qara bir mərmərin üstə
Adımız qızılla yazılmayıbdır,
Onun da yanında eldar şamını
Əkməyə bir çala qazılmayıbdır.

Hələ ki, bizimçün bir qarış torpaq
Dəmir şəbəkəyə alınmayıbdır.
Təsəlli xətrinə dostlar əliylə
İçində bir "cənnət" salınmayıbdır.

Hələ ki, deyəndə sağlığımıza
Kəlisa zəngitək dinir badələr,
Hələ ki, şəklimiz yaxalıqlarda
Sancaqla deşilmir qəmli, mükəddər.

Çatar qüdrətimiz, çatar vaxtımız
Günəşdən sərinlik, sudan od alaq.
Əzəl şöhrətini Azərbaycanın
Hünərlə yaşadan bir övlad olaq.

O zaman qara bir mərmərə deyil,
Günəşə yazarıq adımızı biz.
Ölçüyə sığışmaz, hesaba gəlməz
Sözümüz, şerimiz, şeriyyətimiz.

MƏNİM NƏYİM VAR

Sözümüz, şerimiz, şeriyyətimiz
Ölçüyə sığışmaz, hesaba gəlməz,
Hərdən uzandıqca söz-söhbətimiz
Sorğuya tutursan məni niyə bəs?

Məndən soruşursan axı nəyin var?
Gülüm, əvvəlkitək budur cavabım:
Sənin bir qənirsiz gözəlliyin var,
Mənim vəsf etməyə sözüm, rübabım.

Mənim ürəyim var, hər tikəsindən
Neçə ürək çıxar məhəbbət dolu.
Əzəli qaydadır: bircə ovuc dən
Səpilsə göyərib bir zəmi olur.

Mənim əllərim var, səni qaldırar
Bir cüt ağ göyərçin qanadı ilə.
Şikara çevrilsən səni saldırar
Dəlisov qızılquş inadı ilə.

Mənim gözlərim var, aydan nur dərər,
Küləyin özünü seçər izindən,
Eşqimi, hissimi dəqiq göstərər,
İnan, Femidanın tərəzisindən!

Mənim saya gəlməz nəğmələrim var,
Hərəsi can verər cansız bir simə.
Əzizim, qəlbimdən qopan mahnılar
Orfeyin özünü salar tilsimə!

Bu ürək, bu əllər, bu gözlər sənin,
Tilsimli nəğmələr sənindir bütün.
Qalsın qulağında bu sözlər sənin:
Əvəz istəməzlər məhəbbət üçün.

KİM KİMİN ADIYLA

Əvəz istəməzlər məhəbbət üçün,
Qalsın qulağında bu sözlər sənin.
Təpədə bir palıd göyərdi bu gün,
Oxşadı gözünü gəlib-gedənin.

Yüksəldi o qədər, qalxdı o qədər,
Dedilər: bu palıd göyə dayaqdır.
Ərzin bir parçası uçulsa əgər,
Dedilər: bu palıd saxlayacaqdır.

Səmanın sayrışan səyyarələri
Qonardı palıdın yarpaqlarına.
Gecələr qanadı təyyarələrin
Dəyərdi palıdın budaqlarına.

Çətirdə genişlik, boyda ucalıq
Palıdı salmışdı dilə, ağıza,
Palıdın insantək düşmüşdü artıq
Söhbəti kitaba, şəkli kağıza.

Təpəni yadına salan olmadı,
"Təpə üstündəki palıd" dedilər.
Sonra tək çəkildi palıdın adı,
Bürüdü təpəni qüssə, qəm, kədər.

"O mənim sinəmdə qalxdı, ucaldı,
Bu qədər nankorluq kimdə var, kimdə?
Adıma, üstümə o kölgə saldı,
İndi heç görünmür yüksəkliyim də!"

Palıd dinlədi bu giley-güzarı,
Titrədi təponin acı sözündən,
Sanki sındı onun palıd vüqarı,
Boyu, ucalığı düşdü gözündən.

Dedi: "Təponinmiş bu şan, bu şöhrət..."
Ah çəkdi, ahından göylər ağladı.
Bütün qəzəbilə coşdu təbiət,
Səmanı çarpazı şimşək dağladı.

Bu dərdlə yaşaya bilməyəcəkdi,
Palıd bu dəhşəti duydu yenidən.
Odlu bir şimşəyi köksünə çəkdi,
Onu kül elədi şimşək də fövrən.

İndi dağ boydadır təpə həsrəti,
Palıdsız anılmır, qalıb tənha, tək.
Çox zaman bilmirik biz bu hikməti:
Kim kimin adıyla şöhrətlənəcək.

OƏTİYYƏT

Kim kimin adıyla şöhrətlənəcək,
Çox zaman bilmirik biz bu hikməti.
Torpaqmı çiçəyə verir bərbəzək,
Yoxsa ki, çiçəkdir yerin zinəti?

Vətəni ucaldan qəhrəmanmıdır,
Yoxsa qəhrəmanı ucaldan Vətən?
Ürəyi yaşadan qızıl qanmıdır,
Yoxsa Vətən eşqi?

Bu sualla mən
Evimdə balaca iş otağıma
Bu gün rəis kimi qəzəblə girdim.
Baxanda düyümlü qaş qabağıma
Öz şəklim divarda zağ-zağ əsirdi.

Şəklimə: – Düş, dedim, divardan yerə.
Yaxın gəl, sənlə çəkim haqq-hesab.
Baxmışam yazdığın o şeirlərə,
Düzmüsən dolaba sən kitab-kitab.

Bunlar sənin olsun!
Yazdıqlarına
Əməl etmisənmi, söylə, həyatda?
Yoxsa bağa kimi girmisən qına
Ağır dəqiqədə, ağır saatda?

Güllərdən el üçün şirə çəkmisən,
Yoxsa ki, dönmüsən qara çibinə?
Kürsüdən sinənə döyə-döyə sən
Yoxsa əl salmısan xalqın cibinə?

Bir əyinə paltar, ağıza çörək,
Bir dodağa gülüş olmusanmı heç?
Qışda alovlanıb dolu tonqaltək
Soyuq bir otağa dolmusanmı heç?

Yayda gün başları dağlayan zaman
Sərin bir çətirə dönmüsənmi sən?
Bir Vətən övladı ağlayan zaman,
Söylə, tutmusanmı onun əlindən?

Elə ki, boşaldı elin anbarı
Qara gəymisənmi yaslılar kimi?
Görəndə vicdansız hökmü, qərarı
Rəngin ağarıbmı bəyaz qar kimi?

Udmusan sözünü yoxsa bir anda
Bıçaq işləyəndə qana, iliyə?
Əqidə yolunda, inam yolunda
Qərar vermisənmi Nəsimiliyə?

Belə şöhrətlənib sənin əcdadın,
Vətən tarixini belə yazıbdır,
Sevinclə, kədərlə dolu həyatın
Yolunda nə sapıb, nə də azıbdır.

Şəklim gözlərini döyüb baxırdı,
Söyləyə bilmirdi öz qərarını,
Əl atıb mən onu qəzəblə cırdım,
Tökdüm döşəməyə qırıqlarını.

Yel atdı bir yana hər parçasını,
Bəyəndim hökmümü, qətiyyətimi.
İnsan özü versin öz cəzasını,
İnsan özü versin öz qiymətini!

VİCDAN

İnsan özü versin öz qiymətini,
İnsan özü versin öz cəzasını!
Gözəllik artırar təravotini,
Həyat da dəyişər öz mənasını.

Uçulub dağılar islah evləri,
Hakim vicdan olar məhkəmələrdə.
Qara bayrağıyla tərk edər yeri
Bəşərin bəlası fitnə də, şər də.

Hər kim ki, Vətənin bir çərəyini
Hətta ləkələsə ehtiyacından, –
Gəlib özü assın öz ürəyini
Xalqın qarşısında dar ağacından.

Cinayət başında tutulmayanlar
Qoy özü özüyçün məhkəmə qursun.
Zindanlar küncünə atılmayanlar
Qoluna qandalı qoy özü vursun!

Vətən beləsini bağışlayar da,
Onda ana qəlbi, ana gözü var?
Ellər bu qərarı alqışlayar da,
Vətənin sözünə kimin sözü var.

Büdrəsən qolundan tutar el sözü,
Büdrəmək dönməsin ancaq vərdişə.
Kölgəli deyilsə insanın gözü
Qara çeşməksiz də baxar günəşə.

MUSTAFA MÜƏLLİM

– Qara çeşməksiz də baxar günəşə
Kölgəli deyilsə insanın gözü.
Mustafa müəllim dərsdə həmişə
Belə başlayardı birinci sözü.

Filosof olardı o, yerli-yersiz,
Qaşını çatardı Didrosayağı.
Deyərdi bir küllün zərrəsiyik ki,
O küll anamızdır – Vətən torpağı.

Deyərdi xalqlardan, qəhrəmanlardan,
Usyandan, döyüşdən, sürgündən bizə.
Tarixə dönsə də o, zaman-zaman
Misallar çəkərdi bu gündən bizə.

Deyərdi pis övlad çürük diş kimi
Daha da artırır ağrını, dərdi.
Yeni bir fəlsəfə kəşf etmiş kimi
Dərsin axırında belə deyərdi:

– Gələn hər əzabı, hər əziyyəti,
Qəmi, mütiliyi, məhrumiyyəti
Əlləri qoynunda kim qarşılasa,
Baxsa şükranlıqla bayrama, yasa
Yüz milyon olsa da sayı,
yaxşı bil,
O canlı sürüdür!
Sürü xalq deyil!

Fəqət Nəbi kimi, Janna d'Ark kimi,
Matrosovsayağı uca dağ kimi,
Əliyalın qılınc, sinəsi sipər,
Zülmün qarşısına çıxsa bir nəfər,
Hökmüylə uçulsa zülmün təməli,
Bir nəfər bütöv bir xalqdır, deməli.

Mustafa müəllim, min rəhmət sənə,
Görüm nurla dolsun sənin məzarın.
Bu gün qulağımda səslənir yenə
Bir zaman dediyin bu kəlamların.

Bu gündən otuz il dönürəm geri,
Dursan qarşımda yenə sən mənim.
Ömrün acı, şirin xatirələri
Keçir gözlərimin önündən mənim.

Sanki köhnə valı kimsə yenidən
Yüzüncü dəfədir qurub oxudur.

Sanki əks-səda dinləyirəm mən,
Səni görməyim də sanki yuxudur.

Bircə xatirəni yaşatsa insan
Bütün ömrü boyu bəlkə bəsidir.
Üroyi kövrəldən, gözü yaşardan
O uzaq illərin xatirəsidir.

ŞƏHİD MEŞƏ

O uzaq illərin xatirəsidir
Ürəyi kövrəldən, gözü yaşardan.
Bu, Kürün kədərli hekayəsidir,
Yadıma düşdükcə yanıram, inan.

Sahildə zümrüdü bir meşə vardı,
Söyüdlü, çinarlı, ağcaqovaqlı.
İlboyu bir yaşıl süfrə açardıq,
Budağı yuvalı, qoynu qonaqlı.

Meşəni insanlar salmamışdılar,
Nə bir alın təri, nə əl qabarı.
Anamız təbiət özü bir bahar
Əkmişdir sahilə bu ağacları.

Kür o il aşmışdır uca bəndi də,
Qala bilməmişdir öz məcrasında.
Mənim doğulduğum Muğan kəndi də
Bir ada olmuşdur su səhrasında.

Elə bil başını itirmişdir Kür,
Gözümdən qovmuşdur şirin yuxumu.
Daşanda özüylə gətirmişdir Kür
Sahilə nə qədər ağac toxumu.

Elə ki Kür yatdı,
Həmin toxumlar
Cücərdi, boy atdı gündə bir çərək.

Üstündən keçməmiş üç qış, üç bahar
Bir meşə oldu ki, lap şəklini çək.

Gəldi qucağına onun el, elat,
Süfrələr salındı kölgəliklərə.
Daşanda Kürümü söyən camaat
Ona "sağ ol" dedi meşəyə görə.

Sonra gözə girib yer əkmək üçün
Torpaq "lazım oldu" kolxoz sədrinə.
O gəlib meşəni qırdırdı bir gün,
Toxundu çiçəyin, gülün xətrinə.

Ağaclar yıxıldı qollu-budaqlı,
Yuvalar dağıldı çolpalarıyla.
Çinarlı, söyüdlü, ağcaqovaqlı
Meşə yoxa çıxdı sıx qatarıyla.

Sədr bostan əkdi meşə yerində...
Torpağın nə yaman həkkəsi varmış.
Ağılsız, vicdansız tədbir görəndə.
Torpaq da insandan qisas alarmış.

Bircə şamama da bitirmədi yer,
Çayır yorğan kimi örtdü torpağı.
Sədri muradına yetirmədi yer,
Qazancı nə oldu?

Elin danlağı.

Hər kəndə gedəndə dinləyirəm mən
Şəhid bir meşənin şikayətini.
Özün bir şitil də əkməmisən sən,
Qoruya bilməzsən el sərvətini.

HERKULESİN ÇOBANLIĞI

Qoruya bilməzsən el sərvətini,
Özün bir şitil də əkməmisən sən!
Aqil babaların bu hikmətini
İnsanlar yadından çıxarır bəzən.

Bağı tapşırmazlar hər bağbana da,
O bağda nə bəhrə, nə də bar qalar.
Sürü tapşırmazlar hər çobana da,
Saysız bir sürüdən bir davar qalar.

Millətin önündə, xalqın önündə
Borcu düşündürsün gərək hər kəsi.
Canlanır gözümdə mənim bu gün də
Qədim yunanların bir əfsanəsi.

Bir vaxt Yunanıstan torpaqlarında
Çobansız otlarmış sürü, deyirlər.
Suyu bol axarmış bulaqların da,
Gözəl otlaq imiş bütün o yerlər.

Sürülər çobansız gedib-gələrmiş
Örüşə, yatağa, yamaca, yala.
Hər kolun dibində quzu mələrmiş
Zümrüdü çöllərə səs sala-sala.

Sürülər qorxusuz, ayın-şayınmış,
Örüş otlu, sulu, havalar ilıq.
Camaat sürüdən çox arxayınmış...
Bir gün pozulur bu arxayınçılıq.

Görürlər kiçilir sürü günbəgün,
Qoyuna canavar daraşıb demək.
Üstündə göz olsun gərək sürünün,
Hünərli bir çoban tapılsın gərək.

Herkules!
Neynəyər ona canavar?!
Gəlin çoban edək elə onu da.
Ona təslim oldu amazonkalar,
O yıxdı üçbaşlı Gerionu da!

Dedilər: Herkules qoy çoban olsun,
Zevsin igid oğlu indi bekardı.
Qoy özü sürüyə pasiban olsun.
Herkules sürünü çölə apardı...

Qovdu bir-birini günlər, həftələr,
Yenə azalırdı qoyunlar fəqət.
Adamlar gizlənib çöldə güddülər.
Güddülər...
Onları bürüdü heyrət.

Gördülər Herkules özü sürüdən
Bir-bir qoyunları tutaraq yeyir.
Sürünü günbəgün odur əridən,
"Bu mənim çobanlıq haqqımdır" deyir.

Seçir köklərini, yağlılarını,
Azman hər öynəyə üç qoyun yeyir.
Beləcə talayır elin varını,
"Bu mənim çobanlıq haqqımdır" deyir.

Camaat mat qaldı buna...
Nə desin?
Ağsaqqal bir qoca hökm çıxardı:
İstər qoyunları canavar yesin,
İstərsə Herkules, nə fərqi vardı?

Bizik haqq-hesabla talanan yenə,
Günahkar dostu bil, ya da düşməni.
Hamı "bəli" dedi onun sözünə,
Bunu bir Herkules başa düşmədi.

O, haqlı özünü sanırdı ancaq,
"Bu mənim çobanlıq haqqımdır" deyə,
Əzizim, bu günün gözləriylə bax
Nə vaxtsa yaranmış bu əfsanəyə.

HƏQİQƏTLƏR, ƏFSANƏLƏR

Nə vaxtsa yaranmış bu əfsanəyə,
Əzizim, bu günün gözləriylə bax.
Elə et bugünkü hər an, saniyə
Sabah bir əfsanə görünsün ancaq.

Zəfər dastanını bu gün elə yaz,
Desinlər azmanmış, yoxsa nə imiş?
Desinlər həqiqət bu boyda olmaz,
Desinlər yəqin ki, əfsanə imiş.

Gör nələr həqiqət görünür bizə,
Əfsanə insanı hara aparıb:
Həqiqət deyirik ulu Hürmüzə,
Əfsanə sanırıq – Fərhad dağ yarıb.

Xəyalı mat qoyan bir əfsanədən
Ayırmaq olmursa bir həqiqəti –
Belə həqiqətə, əfsanəyə mən
Deyirəm insanın, ömrün zinəti.

Faşist bayrağını endirməyimiz
Sabah bir əfsanə sayılacaqdır.
Aya canlı insan göndərməyimiz
Dönüb əfsanəyə
yayılacaqdır.

Heyranam xalqımın zəkasına ki,
Əfsanə uydurub torpağa bağlı.
Baş vurub tilsimlər dünyasına ki,
Tilsimi sındırsın idrakı, ağlı...

Məlikməmmədi də xalq yaradıb ki,
Eldə ona bənzər qəhrəman olsun.
Zülmət dünyasına onu atıb ki,
Özünü zülmətdən qurtaran olsun.

Bəlkə Məlikməmməd yaranmasaydı,
Nə Şamil olardı, nə də ki Babək.
Hansı zülm əbədi yerində saydı,
Əriyib getmədi güney qarıtək?

Ağ div uydurubdur aqil babalar,
Udar yer şarını bir tikə kimi.
Bugünkü cahangir, həris qəsbkar
Xalqın yaratdığı ağ div deyilmi?

O dədəm Qorqudu, Burla xatunu
Əsrlər keçsə də el unutmayıb.
Sürüb qoç Koroğlu öz Qıratını,
Neçə qəsbkara divan tutmayıb?

Adda Üçtibindən Qalaqayına,
Arazı ömründə daşan görmüsən?
Baxmayıb ellərin hay-harayına
Saranı götürüb qaçan görmüsən?

Bu sözlə, Xançoban deyir ki mənə
İstəsən Arazı daşırmaq olar.
Hər kiçik ləpəni çevirib kinə
Məftillər üstündən aşırmaq olar.

Ah, yazıq babalar, aqil babalar,
Hər kiçik sözünüz örnək, bir aləm!
Vurğun sizə deyib "cahil babalar",
Mən onun yerinə üzr istəyirəm.

Siz sonsuz idrakla, sonsuz hünərlə
Müşküllər açırsız, tilsim qırırsız.
Siz bu həqiqətli əfsanələrlə
Bizi özümüzə tanıtdırırsız...

***

Hər şeyi təzədən başlayaq gəlin,
Ömrün anını da, saatını da,
Pyedestal üstdəki məğrur heykəlin
Hələ tunc olmamış həyatını da.

Təzədən başlayaq itən illəri,
Dostu, düşməni də təzədən seçək.
Meridianları, paralelləri
Təzədən adlayaq, təzədən keçək.

On səkkiz yaşına girənlər kimi
Bəyənək təzədən, sevək təzədən,
Əqidə yolunda bir əsgər kimi
Həyatı başlayaq mübarizədən.

Nəğmədə səslənən saxta xal kimi
Mənasız ötüşən günlərimiz var.
Yaxşı köklənməsə tarın bir simi
Ən gözəl musiqi xaric çalınar.

Gəlin özümüzü, xislətimizi
Təzədən dərk edək, təzədən duyaq,
Bizi sərməst edən şöhrətimizi
Urvatsız ölütək məzara qoyaq.

Əsiri olmuşuq cılız hisslərin,
Tiri seçməmişik öz gözümüzdə,
Söyüb qarasına ürəksizlərin
Ürəksiz olmuşuq biz özümüz də.

Tərsinə çevrilmiş durbindən baxaq
Keçib gəldiyimiz bu ömrə, günə,
Çəkilib uzaqdan baxanda ancaq
Hər insan özünə aydın görünər.

Ömrün azlığıdır bizə göz dağı,
Ömrün qısalığı bizi əyibdir.

Səməndər quşunun odda yanmağı
Ona neçə həyat bəxş eləyibdir.

Yanıb külə dönür səməndər quşu,
Külündən yaranır yeni səməndər.
Ömrün boş günləri, hədər olmuşu,
Yenidən yaşansa yüz ömrə dəyər.

Başlayaq, hələ ki nəfəsimiz var,
Yanaq, təzələnək, solaq, cücərək.
Təzədən sınansın mərdlik, etibar,
Təzə vurğularla döyünsün ürək.

Qoy güzgüsü olsun yaşanmış illər
Təzə başlanacaq eşqin, əməlin.
Qoy bizi təzədən sınasın ellər,
Hər şeyi təzədən başlayaq gəlin.

Fevral, 1978

***

Gizlətmə gözünü, gözünə qurban,
Ürək görünməyir göz gizlənəndə,
Günəbaxan kimi günəşə bax sən,
Kölgəyə bürünər üz gizlənəndə.

Hərə baş girləsə qoca dünyada
Atsız atlı olar, atlı piyada.
Şir meşədə ölər, qartal qayada,
Əyri meydan sular düz gizlənəndə.

Ömrün məhək daşı açıq alındır,
Yüz hicran əzabı bir vüsalındır.
Çəkinmə, od üstə ayaqyalın dur,
Kim deyər sözünü biz gizlənəndə?

1979

***

Bəzən düşünürəm: köhlən bir atam,
Yollarda at kimi səkməliyəm mən,
Yükləri belimə gərək mən çatam,
Bütün ağırlığı çəkməliyəm mən.

Keçib getməliyəm daşlı yolları,
Bu daşlı yollardan çıxan deyiləm.
Yollarda saldığım polad nalları
Qayıdıb təzədən yığan deyiləm.

Qoy belim yük görsün, yəhər görməsin,
Bir yaxşı düşəndə bir yaman minər.
Cilovum kəmfürsət əllər görməsin,
Qamçısı belimdə şaqqıldar, dinər.

Sökün axurumu, kəsin dənimi,
Bundan incimərəm zərrə qədər də.
Görsəm naqis əldə öz yüyənimi,
Üzər ürəyimi qəm də, kədər də.

Qoyun arabama ən ağır yükü,
Dünyanı xurcuntək belimdən asın.
Kəmfürsət əldəki qamçılar təki
Mənim kürəyimdə şaqqıldamasın.

Müdam "çəkən atı vurarlar" deyib
Atalar qamçını düşmən sanıbdır.
Qamçı vüqar qırıb, qamçı bel əyib,
Qamçıdan kürək yox, ürək yanıbdır.

Fikrində nələr var dilsiz bir atın, –
Yorğun gözlərindən oxuyunuz siz,
Belimə dünyanın yükünü çatın,
Kürəyim qamçısız, ağzım yüyənsiz.

1979

BİZİM PLANET

Meteor selini keçib cürətlə
Lacivərd göylərə insan saldı iz,
Baxdı ucalıqdan Yerə həyrətlə,
Dedi: – Nə gözəldir planetimiz!

Gözünə işıqlar dəydi birinci,
İşıqlar – qırmızı, yaşıl, ağ, sarı,
Hərəsi bir yaqut, zümrüd, bir inci,
Süzdü gözdolusu bu işıqları.

Gözünə silsilə dağlar göründü
Karvana düzülmüş dəvələr kimi.
Dağların döşündən duman süründü
Təzə imək‌ləyən nəvələr kimi.

Göründü insana dənizlər, göllər
Yeni qalaylanmış tava kimi ağ.
Göründü arpalı, buğdalı çöllər, –
Sanki zəfərandır Yerdə bir tabaq.

İnsan yüz mərtəbə evlər gördü ki,
Yapışıb torpağa göbələk kimi.
İnsan kənd gördü ki, şəhər gördü ki,
Gözləri oxşayır yeddi rəng kimi.

İnsan iki lövhə gördü cahanda:
Ölkə var oyaqdı, el var yatırdı.
İnsan gülümsədi göydən baxanda
Yer nəhəng bir topu xatırladırdı.

İnsan bir qürurla süzdü bunları,
Süzdü ulduzların bərabərindən,
Dedi: – Nə gözəldir bizim Yer şarı!
Baxdı, köks ötürdü insan dərindən.

Birdən çöhrəsini bürüdü kədər,
Dolandı başına onun kosmos da.
Qorxdu – bu gözəllik məhv ola bilər,
İynə batmış kimi partlar bu "kos" da!

İnsan bilirdi ki, Yer kürəsində
Qucağı doludur arsenalların.
Ölüm qoxusu var buz nəfəsində
Qarımış, qartımış generalların.

Səmadan görünən zümrüd meşənin
Qoynunda torpaq var, – insan bilirdi.
Düzlərə çiçək yox, raket döşənib,
Raketlər danışar, – insan bilirdi.

Bilirdi neytron, atom haçaqdır
Yatır yuvasında bir ilan kimi,
Töküb zəhərini sıçrayacaqdır
O, "qış yuxusu"ndan ayılan kimi.

Bilirdi altında qayıqlar üzür
Qalaylı tavaya bənzər dənizin.
Bilirdi od yüklü təyyarə süzür
Lacivərd qoynunda göylərimizin.

Bunları görmüşdü insan min kərə,
O, Yerdən gəlmişdi, burda uçsa da.
Bilirdi yenə də dönəcək Yerə
Ulduz aləmində qanad açsa da.

Kimsəsiz qoynundan uçan daşların
İnsan var səsiylə qışqırdı birdən:
Ey Yer kürəsinin vətəndaşları,
Kosmosdan seyr etdim bu torpağı mən.

Necə də sakitdir meşə, dəniz, dağ!
Kaş bu ucalıqdan görəydiniz siz.
Gəlin, onu belə sakit saxlayaq,
Nə qədər gözəldir planetimiz!

VƏTƏN

Mən səndən bir yaşıl budaq istədim,
Sən mənə bəxş etdin zümrüd meşələr.
Mən səndən kiçik bir otaq istədim,
Sən mənə bəxş etdin dilbər guşələr.

Mən səndən adicə həyat istədim,
Sən məni çıxardın min-min səhərə.
Mən səndən kiçik bir qanad istədim,
Sən məni uçurdun ənginliklərə.

Mən səndən bir dəstə çiçək istədim,
Mənimçün dörd fəsli yaz elədin sən.
Mən səndən ilhamlı ürək istədim,
Sən mənə təb verdin milyon ürəkdən.

Mən səndən kiçik bir sevinc istədim,
Sən mənə bəxş etdin bütöv səadət,
Mən səndən bir parça bürünc istədim,
Sən mənə bəxş etdin xəzinə, dövlət.

Mən səndən istədim açıq bir alın
Sən mənə bəxş etdin əzəmət, vüqar,
Mən də başıaçıq, ayağıyalın
Yolunda can qoysam, yenə az olar.

Bəlkə buna görə əzəmətlisən –
Nəyin var vermisən əsirgəmədən?!
Sən bir ana kimi səxavətlisən,
Anam Azərbaycan, Vətən, can Vətən!

TORPAĞIM

Hamıdan çox torpağıma inanıram,
İstəyirəm hər an onu seyrə çıxım,
Üzərində yeriyirəm, dayanıram,
Düşür zərif sinəsinə ağırlığım.

İnanıram, yenə möhkəm saxlayacaq,
Qoymayacaq məni o, dar ayağında.
Cavan ölsəm, bulaqlarla ağlayacaq,
Qoca ölsəm, dəfn edəcək qucağında.

Bir dən atsam bu gün onun cadarına
Mənim üçün min-min sünbül yetirəcək.
Ehtiyacım olsa qışda baharına
Qar üstündə qızılgül də bitirəcək.

İnanıram, düşməninin qabağına
Özgəni yox, ilkin məni göndərəcək.
Yara dəysə bir ağacın budağına
Yalnız məni o, məlhəmə döndərəcək.

Lazım gəlsə çevriləcək yad qəbrinə
Mənim üçün gülzar olan hər qarışı,
Yer üzünə min il sonra gəlsəm, yenə
Kaş mən olam bu torpağın vətəndaşı!

YALLI

Gəlin yallı gedək biz
Könlümə yallı düşüb.
Xəyalım babaların
Ruhu ilə görüşüb.

Gəlin yallı gedək biz,
Gedək Şərur yallısı,
Mərdlik, dözüm, azadlıq,
Hünər, qürur yallısı.

Bir yallı ki, Qobustan
Qayasına yazılıb,
Bu torpağın ruhuna,
Mayasına yazılıb.

Əllər bir-birini
Qoy tutsun, ayrılmasın.
Əllərin bu birləşən,
Zənciri qırılmasın.

Yallı gedən cərgələr
Həm də sıx olsun gərək, –
Lap İçərişəhərin
Qala divarlarıtək.

Halayımız uzansın
Qranit çəpər kimi,
Yurdumuzun belinə
Heç tonqal da çatmayaq.

Dolansın sipər kimi
Qüdrədəndir odumuz,
Elə oddan yaranıb
Azərbaycan yurdumuz.

Qaynaqlansın əlimiz
Dəmirtək bir-birinə.
Dönək bütöv Vətənin
Dəmir sərhədlərinə.

1976

SƏADƏT

Gəl, yaddan çıxaraq soyuducunu,
Gəl, Kürün istihal suyundan içək.
Alaq əlimizə yolun ucunu,
Laçından, Salyandan, Qazaxdan keçək.

Axsın könlümüzə talış ləhcəsi,
Şəki bağlarını gəzək ha indi.
Gəncə çinarının xal-xal kölgəsi
Quzey qarı kimi safdı, sərindi.

Günəş gözlüyünü çıxarıb ataq,
Gözü qamaşdırsın Muğan günəşi.
Göygöltək Kəpəzin yalında yataq,
Quşlarla bir görək doğan günəşi.

Gəl, qumral qoyundan çalaq dələmə,
Lalələ çəmənlik – yaşıl süfrəmiz,
Günü Qarabağda axşam eləmə,
Ağsu dolayından keçməliyik biz.

Vətən intəhasız, ömür azdı, az.
Bu qısa ömür də keçməsin hədər.
Adam səadəti evə çağırmaz,
Adam səadətin dalınca gedər.

1976

SƏFƏRDƏN QAYIDANDA

Mən bilmirəm zarafatdır, həqiqət –
Deyirlər ki, hərə bir cür dəlidir.
Özgəsinə söyləməyə nə hacət,
Bu söz elə mənə deyilməlidir.

Bəzən uzaq səfərlərə çıxıram,
Bir ay sonra qayıdıram Vətənə,
El-obama başqa gözlə baxıram,
Elə bu vaxt dəli deyin siz mənə.

Görürəm ki, Göy göl olub okean,
Qız qalası ucalıbdır əlli qat.
Cənnət sözü deyiləndə hər zaman
Lüğətçilər belə yazır: Batabat.

Kainatda, bircə günəş olsa da,
Öz məxsusi günəşi var Muğanın,
O yanacaq ərzi zülmət alsa da,
Qaralsa da, al günəşi cahanın.

Görürəm ki, göy səmanın tağını
Mənim saysız buruqlarım saxlayır.
Yoxsa uçar ulduzların yığını,
Gümüş Ay da mehvərindən laxlayar.

Görürəm ki, hamı nəğmə düzəldir,
Fəqət əldə nə kaman var, nə söz var.
Xəritələr ona görə gözəldir
Orda Kür var, göy Xəzər var, Araz var.

Qobustanmış Luvrun adı əzəllər,
Cenevrənin əzəl adı Lənkəran.
Bilinməzmiş çörək dadı əzəllər
Olmayanda Azərbaycan – bu məkan.

Deyirlər ki, hərə bir cür dəlidir,
Dəli edib məni sevgi, məhəbbət,
Bu söz elə mənə deyilməlidir...
Ah, ayrılıq, ah, bir aylıq səyahət!

Torpağa bax, daş da açar gül-çiçək,
Dodağımı tez sıxıram mən ona.
Mümkündürsə mənə dəli deməmək
Onda elə Qeys deyin Məcnuna.

GƏNCƏ ÇİNARININ MAHNISI

Mən öz familimin qədimliyilə
İngilis lordutək qürrələnmədim.
Çoxları səsini çəkəndə zilə
Mən heç danışmadım, mən heç dinmədim.

Nəslində naqislik olanlar ancaq
Şöhrətdən dəm vurar söhbətlərində.
Mən adi çinaram – kök, gövdə, budaq –
Budağım göylərdə, köküm dərində.

Yaşımı bilmirəm – İlyas Nizami
Kölgəmdə dincəlib şeir deyərək.
Kəpəz kövrələndə Məhsəti kimi
Gözündən Göygölü salıb damcıtək.

Şimşəyi saxlayar qolum-qanadım.
Gövdəm bir dayaqdır ərşə sanaram.
Mən bir çinaram ki, şöhrətim, adım
Əlimdən çıxarsa, solub yanaram.

Mən bir çinaram ki, öldürməyibdir
Məni fatehlərin oxu, gülləsi.
Fəqət qürurumu bəzən əyibdir
Adıma bağlanan bir yad kəlməsi.

Neçə padşahın, kralın, çarın
Taxtının tarmar görən çinaram.
İzi də qalmayıb bu gün onların,
Mən yenə vüqarla dururam, varam.

Məni sinəsində saxlayan torpaq
Tanının dünyanın hər bir yerində.
Mən adi çinaram – kök, gövdə, budaq –
Budağım göylərdə, köküm dərində.

1976

KƏNDİMİZ

Salam Kür! Salam Kür! Baba ocağı,
Dağıtdın könlümün hər möhnətini.
Bir dəfə öpməklə burda torpağı
Duymazsan dünyanın səadətini.

Burda ağ qovağın budaqlarını
Kim belə naşıtək əhəngləyibdir?
Sıxdım gövdəsinə dodaqlarımı,
Mənim kənd həsrətim onu əyibdir.

Burda çöl ceyranlı, səma durnalı,
Yulğunlar ucalıb, meşələnibdir.
Burda sürü izi, orda at nalı,
Ətəkdə turaclar eşələnibdir.

Torağay torpağı ayaqlarıyla
Çörək üzü kimi naxışlayıbdır.
Təbiət rəngləri çalarlarıyla
Bizim kəndimizə bağışlayıbdır.

Burda təbiət də insanlaşıbdır,
İnsanlar Kür kimi qaynar, saf, dərin.
Burda kişi tapmaq asanlaşıbdır,
Bu da bəhrəsidir işin, hünərin.

Burda igidlər var aslan biləkli,
Halal zəhmətiylə ucalıb başı.
Burda kişilər var üzü çörəkli,
Əl vursa qızıla döndərər daşı.

Barda oğullar var qız ismətlidir,
Burda qızlar da var oğul kimi mərd.
Analar lap Muğan təbiətlidir –
Yaz kimi mülayim, payız kimi sərt.

Həyətlər həsrətdir burda çəpərə,
Qonaqsız bir süfrə çətin tapılar,
Yada, dost-tanışa, yol gedənlərə
Taybatay açıqdır bütün qapılar.

Bir nemət dadmasan burda günahdır,
Zəhmət ətri gəlir hər tikəsindən,
Deyəsən, oxuyan aşıq Pənahdır,
Tanıdım sazının cingiltisindən.

Başına döndüyüm Kürün qırağı,
Dağıtdın könlümün hər möhnətini,
Bir dəfə öpməklə burda torpağı
Duymazsan dünyanın səadətini.

ANAMIN ƏLLƏRİ

Qızım Ülkərə

Anamın əlləri düşür yadıma,
Ağac qabığıtək cadar-cadardı.
Anamın əlləri düşür yadıma,
Başaq döşürərdi, taya vurardı.

Anamın əlləri düşür yadıma,
Torpaq belləyərdi, əymə əyərdi.
Bir ağac əkmişdi mənim adıma,
Lakin bəhərini bir kənd yeyərdi.

Bir təndir salmışdı – evin dirəyi,
Balaca ehrama bənzəri vardı.
Ətri yayılanda isti çörəyin
Hərəyə bir tikə dadızdırardı.

Bir qara qazanlı ocaq çatardı,
Qazana nə saldı – bir görmədim mən.
Xörək bir külfətə fəqət çatardı,
Sən demə "tox imiş özü" səhərdən.

Baxmazdı atamın qazancı azdı,
Xəzinə deyərdi öz maaşına.
Pulun qıtlığını üzə vurmazdı,
Onu çatdırardı ayın başına.

Köhnə paltarlara ütü çəkərdi,
Hayıfdır, nə üçün atım, deyərdi.
Sökərdi, təzədən biçib tikərdi,
Hamımız növbəylə onu geyərdi.

Bəzən yol çəkərdi qonur gözləri,
Azalıb çatanda təknə dibinə,
Atamın arvadı olandan bəri
O, əl salmamışdı ərin cibinə.

Bəlkə buna görə güzəranımız
Hərdən incəlsə də, üzülməzdi heç.
Gülər gözlərimiz, qızar canımız,
Ancaq dodağımız büzülməzdi heç.

Bu eşqi, sevinci, səmimiyyəti
Gətirən anamın öz əli idi.
O əllər düzlüyün, işin, zəhmətin
Qüdrətdən yaranmış heykəli idi.

İndi rast gələndə isti təndirə,
Barlı bir ağaca, təmiz adama
Nə üçün bilmirəm heç birdən-birə
Anamın əlləri düşür yadıma...

1977

BU YAŞIMDA DA...

Uşaqlıq!
Hərəmiz bir quş saxladıq –
Bülbül, alacəhrə, sığırçın, qutan.
Hər qəfəs küncündə bir quş ağladı,
Mənim qəfəsimdə ala sağsağan.

Belə deyirdilər:
Gedənlər dönür
Sağsağan yerini dəyişsə əgər,
Ümidlər puç olur, arzular sönür
Sınaqdan çıxmırsa bu el deyənlər.

Bir gün sağsağanı açıb buraxdım,
Dedim quşcuğazın dəyişsin yeri.
Onun uçuşuna ümidlə baxdım:
Atam cəbhələrdən qayıdar geri.

"Sağsağan, sağsağan, dəyiş yerini!" –
Yalvarıb-yaxardım gözlərimdə yaş.
Sağsağan anladı bu sözlərimi
Üstünə gələndə əlimdəki daş.

Dəyişdi yerini,
Uçdu budaqdan,
Sonra da başqa bir budağa qondu.
Bir xəbər gəlmədi fəqət uzaqdan,
Elə bil yolların damarı dondu.

İllər yaman qovdu biri-birini,
Yağdı, quzeylədi qar başımda da.
"Sağsağan, sağsağan, dəyiş yerini..."
Deyirəm arabir bu yaşımda da...

UŞAQLIĞIMLA GÖRÜŞ

Necə də doğmadır mənə bu yerlər,
Ah, dəydi burnuma kəndin havası.
Asfalt yol uzanır üfüqə qədər,
Asfaltdan aşağı pambıq tarlası.

Bir çoban sürünü dəhmərləyərək
Qovur,
sürü gedir asfalt boyunca.
Xəyalım uzanır bu asfalt yoltək,
Sinəmə xatirə dolur doyunca.

Ay dost, xatirələr dəlisiyəm mən,
Gəlir göz önünə çobanlığım da.
Örüş başlanardı kənd ətəyindən,
Ot dizdən olardı arx qırağında.

Yoncalar küləklə ləpələnərdi
Yaşıl bir dənizin təlaşı kimi.
Qoyunlar çöllərə səpələnərdi
Zümrüd sahildəki çay daşı kimi.

Sürü yaz buludu – ağlı-qaralı,
Kəsilmək bilmɔzdi arası, ardı.
Keçməmiş yamacı, aşmamış yalı
Neçəsi yoldaca balalayardı.

Qabaqda gedərdi qumrovlu təkə,
Saqqalı bir qarış, buynuzu çomaq.
Qurd-quş qorxutmazdı məni bir tikə,
Yanımda alabaş – o kəsikqulaq.

Örüşdən-örüşə keçdikcə sürü
Quyruq yağlanardı, yelin dolardı.
Bir toya bəs idi qoyunun biri,
Biri bir mağarı yola salardı.

O boyda sürüdə neçə qoyun var
Mən saya bilərdim gözləri bağlı.
Üçəcən saymağı bilir çobanlar:
Bu kərə, bu kürə, bu da qulaqlı!

Dörd fəsli çöllərdə qarşılayardım,
Boyum çomağıma çatmazdı, inan,
Vecimə gəlməzdi şaxtadı, qardı,
Bircə duman idi məni qorxudan.

Gəlir xatirimə
qurdun dişindən
Təpəl bir toğlunu saldırmağım da:
Vallah, xatirələr dəlisiyəm mən,
İndi gör nələri salıram yada.

Necə də doğmadır mənə bu yerlər,
Ah, dəydi burnuma kəndin havası,
Asfalt yol uzanır üfüqə qədər,
Asfaltdan aşağı pambıq tarlası.

Təyyarə pambığa dərman ələyir,
Sürü asfalt yolla gedir örüşə.
Çoban yoxsa məni təkrar eləyir,
Yoxsa uşaqlığım gəlib görüşə?!

Mənim uşaqlığım, başqaydı ancaq –
Ayağı çarıqlı, çiyni çuxalı.
Onun "platforma" çəkməsinə bax,
"Tiklas" plaşı da əyriyaxalı.

Onun bir günlükdür çobanlığı da,
Növbə başqasının olacaq sabah,
O, qorxusuz keçir dumanlığı da
Qurd-quşa həsrətdir örüş, düzəngah.

Sürü bir nizamlı qoşuntək gedir,
Hardasa asfaltdan çıxacaq yana,
Maşınlar yel kimi süzərək gedir,
Baxmayır sürüyə, kiçik çobana.

Qərib bir kədərlə gözlərim gülür,
Sürü də pozmayır öz qatarını,
Qoyunlar dərs keçən adamtək bilir
Kürə hərəkəti qaydalarını.

Gedib bala çoban.
Mən aram-aram
Sıxıram gözümə ağ yaylığımı,
Görünür, həsrətlə xatırlayıram
Çarıqlı, çuxalı uşaqlığımı.

1976

XATİRƏ

Ana, uşaqlığımdan xatirə danış mənə,
Gəlsin qayğısız illər gözlərimin önünə.
O zaman ki kədərdən, qüssədən uzaq idim,
Mən necə uşaq idim?
Sakit idim, ya dəcəl?
Mülayimdim, ya inad?

Hələ məni sınaqdan keçirməmiş bu həyat
Mən necə uşaq idim?
Vəfalıydım, ya dönük?
Çiynimə qoyulanda ağır şələ, ağır yük
Tamam düşməsin deyə bütün ağırlıq mənə
Atırdımmı o yükü özgəsinin çiyninə?
Yaşlananda uşaqlıq örnək olur insana.
Mənə uşaqlığımdan xatirə danış, ana.
Mən necə uşaq idim?
Dinc idim, şıltaq idim?
Qəddardım, ya rəhmli?
Doğruçuydum, riyakar?
Mənimlə bir günah iş tutan zaman uşaqlar
Öz xətrimə, de görüm, satırdımmı onları?
Bundan ağrıyırdımı sonra vicdanım barı?
Öz xeyrmi güdürdüm, məhəllənin xeyrini?
Bir-birinə qataraq mən doğrunu, əyrini
Böyüklərin ovcuna qoyurdummu xəlvəti?
Axı çox kövrək olur uşağın təbiəti, –
Başqasından aldığı bir "mərhəba" sözünə
Qayıdar atasının, anasının üzünə.
Mən neçə uşaq idim?
Yağlı pay alım deyə
Əyirdimmi başımı hər kiçiyə, böyüyə?
Üzümə üz taxmağı xoşlardımmı onda mən?
Ayrılıb tay-tuşumdan, dostlarımın içindən
Dartırdımmı özümü?
Guya alçaq dağ idim.
Son allah, danış, ana, mən necə uşaq idim?
Mənə uşaqlığımdan bir az danış, anacan,
Qoy söhbətin işləsin iliyəcən, qanacan.
Mən nə təhər sevirdim bu yurdu, məmləkəti?
Məhəllənin qeyrəti, kəndimizin qeyrəti,
Elimizin birliyi, sərhədi, çayı, dağı,
Onun xəritələrdə iki rəngdə qalmağı,
Quraqlıqda qıtlığı, nübar ildə bol varı,
Şad gündə sevinclori, dar gündə ağrıları,

Söylə, titrədirdimi qəlbimi nanə kimi?
Ya hər şeyə baxırdım gendən biganə kimi?
Bizim eldə, obada belə məsəl var, ana,
Deyirlər, "südlə gələn sümüklə çıxar" ana.
Mənə uşaqlığımdan söhbət eylə bir qədər.
Görüm xislətimdəki əyriliklər, düzlüklər
Lap əvvəldən var idi, sonradan qazanmışam?
Mən ölümlə həyatın xəttində dayanmışam.
Nə desən, bu yaşda da gərəyim olar yenə,
Ana, uşaqlığımdan xatirə danış mənə.

1977

KƏNDLİ BALASI

Mən həmin o kəndli balasıyam ki,
Havadan duyaram ilin fəslini,
Ölüncə bu sayaq qalasıyam ki,
Mənə deməsinlər danıb əslini.

Südü badyasında tanıyıram mən –
Ala inəyindir, qızıl inəyin,
Sözü mənasından tanıyıram mən –
Saxta ürəyindir, təmiz ürəyin.

Mən həmin o kəndli balasıyam ki,
Əlimdən getməyib buğdanın ətri.
Ömrümdə bir hava çalasıyam ki,
Hər səmtə əsməyim nəfsimdən ötrü.

Götürüb başımdan şlyapamı mən,
Əlvan qalstuku açıb boynumdan,
Torpağı bellərəm özüm yenidən,
Bir xalvar götürəm bir qarış şumdan.

Naxırı, sürünü özüm otarram,
Hansı iş mənimçün mümkün olmayıb?!
Çörəksiz qalaram, susuz oturram,
Zəhmətsiz qaldığım bir gün olmayıb.

Durur o çəkdiyim arxlar hələ də,
Şagird dəftərində xətlərə bənzər.
Mən suya, torpağa yaxşı bələdəm,
Bir damcı tər töksən bir dünya verər.

Mən həmin o kəndli balasıyam ki,
Zəhmət böyüdübdür neçə nəslini.
Ölüncə bu sayaq qalasıyam ki,
Mənə deməsinlər danıb əslini...

1976

QALOŞCÜTLƏYƏN

O mənə zəng elədi, dedi: gözlərin aydın
Filankəs öldü bu gün. Kaş orada olaydın.
Nə intiqam alardın!.. Axır ki getdi, ha... ha...
Qulaq asa bilmədim bu sözlərə bir daha.
Əlimdə dondu dəstək
Qara buz parçasıtək.
Elə bil ki, bu anda ildırım məni vurdu,
Danışanın sifəti gözüm önündə durdu.
Ölən üçün həmişə o, qaloş cütləyərdi,
Onun hər bir sözünə müti boyun əyərdi.
"Öl" desəydi ölərdi, "qal" desəydi qalardı,
Papiros çəkəndə də ondan izin alardı.
Yaxın adamı kimi başına and içərdi.
Onun üçün canından, var-yoxundan keçərdi.
O bilirdi: ölənlə mənim aram sorindi,
Ah, bu qaloşcütləyən, nələr deyir gör indi!
Mən dəstoyi asmamış dedim: belimi əydin,
Alçaq, onun yerinə, kaş sən özün öləydin!

***

Taleyim fırça deyil, qələm verdi əlimə,
Günah məndə deyil, yox, məni töhmət eləmə.
Mən rəssam olsa idim, sevimli qız, nə dərdim,

Ömrüm boyu tək sənin surətini çəkərdim.
Çəkərdim o gözləri, çəkərdim o qaşları,
Yanağına tökülən o dalğalı saçları.
Çəkərdim əllərini, şümşad barmaqlarını,
O gözəl bədənini, gözəl ayaqlarını.
Bircə şeyi bilmirəm, özün söylə sən mənə,
Bilmirəm nə çəkərdim ürəyinin yerinə.

KƏNDİMİZİN GÖZƏLİ

Durdu,
Əl-üzünü yudu o, şehlə,
Geydi göy çəməni ayaqlarına.
Saçını daradı qövsi-qüzehlə,
Bir cüt ulduz taxdı qulaqlarına.

Hardasa qalmışdı bir parça gecə –
Götürüb sürmətək çəkdi gözünə.
Qızıl dan yerini dərib gizlicə
Sürtdü yanağına,
Sürtdü üzünə.

Günəşin telini tutdu qayçıtək,
Laləli yamaca, çölə tələsdi,
Seçdi ürəyincə əlvan bir şülək,
Özünə bir donluq zərxara kəsdi.

Geyindi-kecindi, bəzəndi, durdu
Büllur bir stəkan götürdü mələk.
Səhər şəfəqiylə onu doldurdu,
İçdi axıracan,
Son damcıyadək.

Söyüdlü sahillə işə yollandı
Kürün aynasında baxdı özünə.
Onun camalından sular allandı,
Bir fərəh yayıldı Muğan düzünə.

Ucaboy qovaqlar, yaşıl söyüdlər
Baş əydi obanın gözəl qızına.
Hər qızda bir eyib tapan igidlər
Tənqidçi gözüylə baxdı özünə.

***

Ay eloğlu, biz toyuna gəlmişik,
Məclisimiz məclislərə calansın.
Oyatmaqçın bütün eli, obanı
Əvvəl başdan qara zurna çalınsın.

Göy ürgənin ipək kimi yalı var.
Onda gəlin aparmağın halı var.
Bəy evində neçə xalça-xalı var,
Deyin, onlar toyxanaya salınsın.

El bəzənsin yaşıllara, allara,
Xələt salın boyunlara, qollara,
Nur səpməkçün gəlin gələn yollara,
Qoy məşəllər qoşa-qoşa qalansın.

Quzu kimi qoy mələsin balaban,
Məclis onsuz keçməz başdan, binadan,
Üfüqlərdə ağarınca qızıl dan
Aşıq qardaş ortalıqda dolansın.

Toy ağası, qonaqları başa çək,
Bıçaq kütdür, əti kəsməz, daşa çək,
Basdırmanı qanlı-qanlı şişə çək
Qoy köz üstə cızıldasın, sulansın.

Cəngiylə bir gumbuldasın nağara,
Ara vercək qulaq asaq biz tara,
Kim xor baxsa bu adətə – mağara
Ömrü boyu duru suyu bulansın.

1958

MƏN OLMAYANDA

Dözmür dalğalara ömür gəmisi,
Sonuncu sahilə çatıram demək.
Bir ömür yaşadım mən də cəmisi
Dünyanı tərk edən əcdadımıztək.

Bəlkə də torpağa qarışmadım mən.
Qaldım bulaqların qaynar səsiylə.
Axı ömrüm boyu barışmadım mən
Keşiş Berkleyin fəlsəfəsiylə.

O dedi: "Mən varam – vardır cahan da.
Mənim ölümümlə bitəcək həyat"
Yox, yox, mən öləndə, mən olmayanda
Duracaq yenə də Göygöl, Batabat.

Axıb kükrəyəcək Araz da, Kür də,
Yeno vaz atacaq Muğanda ceyran.
Üzeyrin nəğməsi doğulan yerdə
Təbiət özünə olacaq heyran.

Qarlı Savalandan Talış bicarı
Yenə görünəcək yaşıl xalıtək.
Analar doğacaq mərd oğulları
Hər biri Cavanşir, hər biri Babək.

Yıxacaq onların idrakı, ağlı
Mən müşkül sandığım yüz maneəni.
Onlar seyr edəcək bağçalı-bağlı
Vahid məmləkəti, vahid Vətəni.

Ellər xatırlayar məni o zaman,
Deyər: "Bir Kürçaylı oğlum da vardı.
Üzünə döysə də külək, qar, boran.
Mənim taleyimə nəğmə yazardı".

1977

KƏNARDAN BAX ÖZÜNƏ

Saçlarını ağartmış həqiqət var cahanda:
"Sifət aydın görünməz üz-üzə dayananda."
İnsanlar öz yurdunun keçmişini ananda,
Bu günüyçün övladtək alışanda, yananda –
Kənardan bax özünə.

Azərbaycan ölkəsi! Dünya görmüş məmləkət,
Özəl eşqi həqiqət, saflıq, düzlük, sədaqət.
Müsafiri məhəbbət, andı namusla qeyrət.
Bir gün bəyaz süfrətək ləkələnsə bu xislət -
Kənardan bax özünə.

Vətən böyük – şəhəri, məhəlləsi, kəndi var,
Məhəlləni vətənə döndərənlər indi var.
Fikrində hər küçəyə çəkir min sədd, min divar.
Onlar desə: el üçün öldü yoxdur, döndü var –
Kənardan bax özünə.

Həyat yollarındadır sınıqlıq da, zəfər də,
Müsafirdir bizimlə sevinc də, qəm-kədər də,
Qarşıda düz yol da var, qorxulu döngələr də.
Onunçün bir uğurlu, bir uğursuz səhərdə
Kənardan bax özünə.

Öz qınını kəsməmiş heç vaxt qılınc tiyəsi,
Ləyaqəti, nöqsanı düşündürsün hər kəsi,
Haçan, harda oxunsa Sabirin "Fəxriyyə"si
Sən xəcalət çəkərək dinləməsən bu səsi -
Kənardan bax özünə.

Tale iki üzlüdür - biri ağ, biri qara,
İki möhür də vurur bir elli torpaqlara.
Desələr ömrünü ver, sağalacaq bu yara,
Bu vaxt sına özünü, çəkil bir az kənara,
Kənardan bax özünə.

1974

QAĞAYILAR

Qağayı uçmayır yad sahillərə,
Doğma oylağından keçə bilməyir,
Bəlkə buna görə uzaq bir yerə
Qağayı heç zaman uça bilməyir.

Balaca qaranquş ellər dolanır,
Qışı cənubdadır, yayı şimalda.
Leyləklər dağ aşır, çöllər dolanır,
Özünə yem gəzir yamacda, yalda.

Günəşin eşqiylə durna qatarı
Süzür göy üzündə belədən-belə.
Ancaq yüz dadlı vəd qağayıları
Uçura bilməyir başqa sahilə.

Qağayı uzağa uçmur bir an da...
Daim düşünürəm bu hikməti mən:
Nədəndir şaxta da, qar da, boran da
Onu qova bilmir öz sahilindən?!

Yemək tapmasa da uçmur uzağa,
Ötür nəğməsini gah şən, gah həzin,
Bənzəyir əzilmiş bir ağ varağa
Doğma sahilində doğma dənizin.

O düzür sahilin dənsizliyinə,
Dözür sərt küləyə, dözür sazağa.
Cənnətin özünü bağışla, yenə
Qağayı yerindən uçmur uzağa.

Keçib min qorinə, keçib min fəsil,
Məsəl də yaranıb onun dilində:
"Qağayı həqiqi qağayı deyil
Uzağa uçubsa öz sahilindən".

DÖRDKÜNC GÜNƏŞLƏR

Axşam düşür...
Evlərin kölgələri uzanır,
Evlərin divarında dördkünc günəşlər yanır.
Günəşlər...
Solğunu var, parlağı var, nurlusu var,
Aydın, uğursuzu var,
Tutqun - uğurlusu var.
Birində cingiltili körpə gülüşü yanır,
Birində məhəbbətin ilkin görüşü yanır.
Birində sönüb gedən həyatın son ziyası.
Birində yas,
Birində şən "Vağzalı" havası.
Birində nur zəkası bir xalqın, bir millətin,
Birində son çınqısı sönən qara niyyətin.
Biri sönür,
O biri sübhə qədər alışır,
Biri Ayla, ulduzla, kəhkəşanla danışır.
Hərəsində bir tale,
Ağlı-qaralı xəbər...
Dan yeri qızarınca yanır dördkünc günəşlər.

1974

***

Çəmənə demə ki, göyərməyəsən,
Dağlara demə ki, qarsız qalasan,
Gözlərə demə ki, nur görməyəsən,
Ağaca demə ki, barsız qalasan.

Göylərə demə ki, Aysız olasan,
Günəşsiz olasan ömrün boyunca.
Torpağa demə ki, çaysız olasan,
Yanıb, içməyəsən su da doyunca.

Ürəyə demə ki, arzusuz, kamsız
Qalasan sinədə boş qəfəs kimi.
Şairə demə ki, sözsüz, ilhamsız
Köçəsən dünyadan quru səs kimi.

Demə ki, bir igid qılıncsız, atsız,
Bir ellər gözəli sevənsiz olsun,
Demə ki, göl susuz, qartal qanadsız,
İnsan elsiz olsun, vətənsiz olsun.

1975

DƏMİRAĞAC

Köklər bir-birindən on addım uzaq,
Gövdələr dəmirtək cilalanıbdır,
Burdakı gövdədən uzanan budaq
Orda başqasıyla qaynaqlanıbdır.

Saysız əsrlərin bəlkə izidir
Onun gövdəsinə naxıştək düşüb?!
Sanki bir həsrətin vüsal rəmzidir
Belə qaynaqlayıb, belə birləşib!

Dəmir də bu sayaq qaynaqlananmaz,
Dəmirağacdasa belə adət var.
Qəribə ağacdır, oda at, yanmaz,
Qəribə ağacdır, suya sal batar.

Balta, dəhrə, mişar, olmasa əgər,
Kişisən əlinlə qaynağını aç.
Bütün ərzi dolan,
Belə dəyirlər
Yalnız Lənkəranda bitir bu ağac.

Onun gövdəsinə mismarı da sən
Ya daşla, ya gürzlə, ya çəkiclə çal,
Batmaz zərrə qədər,
Ağır zərbədən
Əyilib geriyə sıçrayır dərhal.

Bir damcı su içsə, bir il bəsidir,
O hansı bulaqdan gileylənibdir?!
Sanki bu diyarın iradəsidir,
Dəmirlə yoğrulub zirehlənibdir.

Dostum, bu yerlərə yolun düşübsə,
Sən də keç bir kərə dəmir meşədən.
Yurdumda ağac da dəmirləşibsə,
Onun taleyindən arxayınam mən.

1975

***

Şair dostum, uzaqlardan gəlirsən,
Sən yaxşı bax bu yerlərə – mənimdir.
Duman keçir, dağ sıyrılır buluddan,
Bu təbiət, bu mənzərə mənimdir.

O tay, bu tay, bir aləmdir hərəsi,
Gül qoxuyur nanə, yarpız dərəsi.
"Kəklik oxur, dalısında fərəsi",
Qızıl xoruz, çil-çil fərə mənimdir.

Gəl mənimlə bir az da qalx yuxarı,
Haray salır Astaraçay axarı.
Sahilində yaşıl çəltik bicarı
Zümrüd xalı sərib yerə - mənimdir.

Görürsənmi, Xəzər üstə sökür dan,
Balıqçılar toru çəkir sulardan.
İqlim-iqlim ağızları suladan
Qızıl balıq, ziyad, nərə mənimdir.

Göz yaşlarım görünməmiş silirsən,
Yoxsa mənim həsrətimi bilirsən?
Şair dostum, uzaqlardan gəlirsən,
Sən yaxşı bax bu yerlərə – mənimdir.

1975

MƏKTƏBLİ UŞAQ

"Kibrit qutusunda beş dənə çöp var,
Üçünü yandırdım, neçəsi qaldı?"
"Heyva ağacına daş atdı Eldar,
On iki meyvənin dördünü saldı..."

Belə məsələlər, misallar indi
Sənin qulağında səslənir hər gün.
Bəlkə də sonunçün bunlar çətindi,
Həlli də müşküldür bəlkə sonunçün.

Axı balacasan, axı uşaqsan,
Çətin ayırırsan ağı qaradan.
Bir vaxt gələcək ki, anlayacaqsan
İnsan həll edəndir, insan yaradan.

Mənim özümə də həlli çox çətin,
Çox müşkül görünür neçə məsələ,
Axı neçə xalqın, neçə millətin
Tale məsələsi gözləyir hələ

Sürə bilməmişik hələ gəmini
Biz Aydan o yana, Marsdan o yana.
Hələ ulduzların lal aləmini
Biz oyatmamışıq,
Gərək oyana.

Hələ də nadanlar dilindən insan
"Böyük xalq", "kiçik xalq" sözü eşidir.
Dünyaya Homeri bəxş edən yunan
Özü kiçik olub, kiçikləşibdir.

Nə qədər liliput Qulliver olub,
Nə qədər Qulliver liliputlaşıb.
Nə qədər dilənçi kral, sər olub,
Nə qədər kral, ser taxtından aşıb.

Yarıtox, yarıac insanlar da var
Ərzin bu bol sulu bol torpağında.
Bizi tələtümə salıb çalxalar
Narahat əsrimiz öz qucağında.

Bax, bu məsələlər həll olunmayıb,
Hələ də həllini gözləyir, bala.
Sənsə beş kibriti barmaqla sayıb,
Həllini gəzirsən, dalıb xəyala.

Hələlik üzdüyün sahil dayazdır,
Qəvvastək dərinə sən getməlisən.
Kibrit çöplərini həll etmək azdır,
Böyük məsələni həll etməlisən.

Elə məsələ ki, mənim gözümdə
Dağlartək ucalıb, mən alçalmışam,
Elə məsələ ki, mənim özüm də
Həll edə bilməyib aciz qalmışam.

1976

DELFİNLƏR

Tufanla, tolatümlə coşubdur qara dəryə,
Dağ-dağ qabaran dalğaların məqsədi guya
Göylərlə öpüşmək, ora çatmaq... ora ancaq.
Azman gəmi girdablara düşmüş bir oyuncaq.
Üzlərdə təlaş, çöhrələri vahimə sarmış,
Dəryada coşan fırtına dəhşətli olarmış!
Torpaq çox uzaqdır bura, sahillər uzaqdır,
Gözlər bir ümid şöləsi hardan tapacaqdır?
Hər dalğa bir əjdahaya bənzər, neçə əlli,

Hardan tapasan burda ümid, qəlbə təsəlli?!
Dörd yanda sular qeyzə gəlib, çaxnaşır aləm.
Birdən biri heyrətlə dinir: "Delfinə bax bir,
Delfinlərə bax, gör nə qədərdir, nə qədərdir!"
Coşqun suya şövq ilə baxırkən gəmimizdən
Bir zərrə nişan qalmadı keçmiş qəmimizdən.
Gözlərdə sevinc, bir də ümid şöləsi yandı,
Hər dalğası ehram, sulu yollar da uzandı,
Zülmət gecə nur gündüzə çevrildi səfərdə;
Lal dilli bu qəvvaslara baxdıqca biz hərdən
Güldük də, sevindik də; cumub bir ana delfin
Heyrətdə qoyan bir nömrə də göstərdi bizimçün.
Hərçənd yolumuz sahilə burdan çox uzaqdı,
Hərçənd qabaran dalğaların hər biri dağdı,
Hərçənd bu səfər qorxulu, dəhşətli səfərdi
Delfinlərə baxdıqca biz ancaq
Sandıq hərəmiz tapdı uşaqtək bir oyuncaq,
Tapdıq da unutduq qəmi-dərdi.

Qara dəniz, 1969

ATLANTLAR

Qədim binaların giriş yerində
Dayanan atlantlar çəkir fikrimi,
Binanı saxlayıb çiyinlərində
Durublar minillik bir azman kimi.

Ağırlıq altında əyilib bellər,
Qollar qabarıbdır əzələsiylə,
Gözlər sanki çıxır hədəqəsindən,
Sanki canlıdırlar, daşdan deyillər.

Baxın qüdrətinə heykəltəraşın
Necə məharətlə çəkib siqləti:
Ağırlıq altında bu cansız daşın
Görünür, duyulur hər əziyyəti.

Sanki atlantların ağrıyır canı,
Ötürüb köksünü inləyir hərdən,
Salmaq istəyirlər bu daş binanı,
Bu daş ağırlığı çiyinlərindən.

Mən gəzib-dururam, yeyib-içirəm,
Onlarsa mıxlanıb öz yerlərinə.
Tərponə bilməzlər dağıla aləm,
Bununçün həsədlə baxırlar mənə.

Onlar həsəd çəkir:
Görmürlər fəqət
Sinəmi odlayan qəm-qubarı da,
Mənim çiynimdəki ağırlıq, siqlət
Torpağa sərərdi atlantları da!

Onlar həsrət çəkib, hicran görübmü?
Varını əliylə veribmi yada?
Bir Buhenvald kimi zindan görübmü?
Oda qalanıbmı Hirosimada?

Dünyanın coğrafi dörd cəhətindən
Yalnız ikisini əzbər bilibmi?
Təhqir olunanda
xəcalətindən
Ürəyi ağlayıb, gözü gülübmü?

Onlara tanışmı mühasirələr?
Onlar ac qalıbmı iki il yarım?
O daş ürəklərə edərmi əsər
Canımda qövr edən çarpanaqlarım?

Gedərli-gəlməzli sürgünlər, yollar
O daş atlantlara tanışmı görən?
Görəsən, onların qəlbində nə var?
Atlantlar dil açıb danışmır görən...

Yüz-yüz binada da ağırdı dərdim,
Atlantlar, siz həsəd çəkməyin mənə.
Əgər daş olsaydım tez əriyərdim,
İnsan olduğumçün dözürəm yenə.

1976

QAR ADAM

Pamirdağda, Himalayda, Hindquşda
"Qar adam"ı axtarırlar yayda, qışda.
Axtarırlar kahaları, yarğanları,
Zirvələrdə adamkeçməz ormanları.
Nençə səyyah, neçə alim, neçə dəstə
Ləpirlərin arxasınca qarlar üstə
Yol gedirlər "qar adam"ı gəzə-gəzə,
İnsan nəsli axtarırlar təzə-təzə,
Nələr deyir min bəlalı bu yer şarı:
Dörd milyardı keçib ərzin insanları,
Siz onları adam kimi yaşadın bir...
Neçələri azadlığın təşnəsidir,
Vətən onun vətəni yox, qəfəsidir.
Lap deyək ki, "qar adam"ı tapdınız siz,
Ona hansı "səadəti" verərsiniz? –
Bir növbə də artar əmək birjasında,
Sıx görünər işsizlərin sırası da,
Düşər qara məhbəslərə "qar adam" da,
Artar bu Yer kürəsində bir edam da.
Qar kimi ağ, qar kimi saf bir ürəkdə
Vaxtsız sönər bir arzu da, bir dilək də.
Bir ana da həsrət qalar balasına,
Mil çəkilər bir gözün də qarasına.
Bir zəka da birco gündə "dəli" olar...
Qəzet yazar: "Bəyaz rəngli bir intihar".
Efir dinər: "Qar adamın cinayəti",

Ekran baxar: "Qar adamın fəlakəti".
Harda isə əldən uzaq, göydən uzaq
Saflıq rəmzi bir "qar adam" qalıb ancaq,
O bilməyir yalan, riya, güclü, gücsüz,
Varmı, yoxmu, yox-yox, onu gəzməyiniz!
Bəyaz rəngli bir gözəllik qalıb bəlkə,
Əlinizlə bu aləmə dəyər ləkə.
Zirvəsində Hindquşun, Himalayın
"Qar adam"ı axtarmayın, axtarmayın!

ANA NAĞILLARI

Gözümdən yuxumu qovaraq hər gün
Nağıl danışardı anam mənimçün.
Şaxta qovuranda, şaxta kəsəndə,
Çovğun püskürəndə, yellər əsəndə,
Dərələr, təpələr batanda qara,
Evimiz dönəndə soyuq məzara
Anam söyləyərdi:
– Dağlar dalında
Günəş qonaq qalıb yay mahalında.
Bir gün də bizlərə o gələcəkdir,
Sırsıra əriyib töküləcəkdir.
Mənim qaladığım təndir sayağı
Günəş isidəcək daşı-torpağı...

Ana sözlərində nə qüvvə vardı –
Onun nağılında canım qızardı.
Hər şeyə inanır uşaq ağılı,
Anamın ən şirin, gözəl nağılı
Bolluqdan olardı,
Xoş güzərandan...
Hər şey başdan aşan uzaq məkandan.
Anam sadalardı dövləti, varı –
Bizim evimizdə olmayanları.
Tutub yer üzünü meyvə bağları,

Ətri bihuş edən qovun tağları,
Qapılar qoyunlu, sağmal inəkli,
Dəstərxan çörəkli süfrə çörəkli.
Axırda deyərdi:
Bir gün bizim də...
Ümid alışardı ana üzündə.

Ana sözlərində nə qüvvə vardı –
Onun nağılından qarnım doyardı.
İndi böyümüşəm,
Dəyişib aləm,
İstili-soyuqlu günlər görürəm.
Şaxtaya, çovğuna düşürəm bəzən,
Bəzən ehtiyacda ömr edirəm mən.
Nağıl danışanlar olur arabir,
Nağılda qış gedir, ilk bahar gəlir.
Nağılda dəyişir güzəran, həyat –
Bunlar ürəyimi qızdırmır, heyhat!
Heyhat qarnımı da doyurmur bunlar!
Görünür, hər yaşın öz aləmi var,
Ya mənim qəlbimdə dəyişir inam –
Hər şirin nağıla inanmayıram,
Ya da ki, cənnətdən desə də bir kəs
Ana nağılının yerini verməz!..

1966

QARLI GÜNDƏ

Qar ələnir lopa-lopa, asta-asta,
Kimsə nəhəng bir ələkdən un ələyir.
Çiçək açmış gilənarı sanki yazda
Dəli yellər var gücüylə silkələyir.

Qar ələnir, mərzlər itir,
Yollar itir, izlər itir.

İtir sərhəd xətləri də,
Həyətlərin hədləri də.
İtir təpə, itir dərə,
Saf bəyazlıq enir yerə.
İnsanları ayıranlar itir bir-bir,
Qar elləri, obaları birləşdirir.

Bir az sonra gün oyadıb göz-qaşını
Axıdacaq yağan qarın göz yaşını.
Ağ cunanı çöldən, düzdən yığacaqdır,
Paltar yuyan qadın kimi sıxacaqdır.

Yenə hədlər görünəcək,
O sərhədlər görünəcək,
Yollar, izlər görünəcək.
Çəpər – mərzlər görünəcək.
Görünəcək hər nə ki, var.
İnsanları ayıranlar.
Yrəyimdə buna görə
Dəli arzu baş qaldırır birdən-birə:
İtsin deyə bu hədd-sərhəd, bu mərz çəpər
Qar qalaydı heç olmasa yaza qədər!

BALIQÇI OĞLUNUN NƏĞMƏSİ

Mən balıqçı olacağam atam kimi,
Göy sularda gəzdirəcək məni qayıq.
İpək toru dərinlərə atan kimi
Tutacağam xəşəm, nərə, qızıl balıq.

Qızıl balıq!
Hər arzumu, gərəyimi
Deməmişdən gözlərimdən oxuyacaq,
Nisgilimi, istəyimi, diləyimi
O biləcək, o görəcək, o duyacaq.

Hər nə desəm, nə istəsəm gətirəcək,
Gətirməsə buraxmaram suya onu.
Xam olmaram nağıldakı balıqçıtək,
Mən bilirəm yalanların olduğunu.

Deyəcəyəm qış günündə bahar gətir,
Yayda qar ver deyəcəyəm ona qəsdən.
Gətirməsə mavi gözlü dərya nədir,
Atacağam, qoy çırpınsın qumlar üstə.

Yalanlara çox inanıb mənim atam,
Mən dünyalar dağılsa da inanmaram.
Qızıl balıq istər onu suya atam,
Üzüb gedə, gətirməyə,
aldanmaram!

Çox uçurub atam fürsət quşlarını,
Çox inanıb atam qızıl balıqlara.
Saya-saya öz ömrünün qışlarını
Həsrət qalıb ömrü boyu ilk bahara.

Sadəlövhmü olum mən də atam kimi,
Yeyib udum nisyə vədi, qılığı mən?
Yox, arzuma, istəyimə çatan kimi
Buraxmaram suya qızıl balığı mən.

Nə borcuma, üzüb getsin dərinlərə,
O, baş vursun okeana, çaya, gölə,
Qızıl balıq məni gözüm görə-görə
Aldatmasın ancaq dadlı vədlər ilə.

Dəniz sakit, sular mavi, hava ilıq,
Belə olur fırtınalar yatan kimi.
İndi yəqin dərindədir qızıl balıq...
Mən balıqçı olacağam atam kimi.

1977

AZADLIQ

Ömür beş il,
Ömür on il artsın deyə,
Bernard, ürək köçürürsən bu sinədən
o sinəyə,
Bu əməlin allahlığa bərabərdir.
Bu, Şekspir qələminə layiq olan
bir əsərdir.
Ancaq, Bernard, kimə lazım elə ürək?
Bircə dəfə azad vura bilməyəcək.
Sinə bağlı otaq kimi,
Ürək orda dustaq kimi.
Uzansa da yüz il, min il,
Belə ömür ömür deyil...
Kimə lazım belə həyat?
Bernard, Bernard,
Bacarırsan azadlıq ver ürək boyda,
Azadlıq ver sən bir tikə çörək boyda.
Fil ürəyi olsa belə köçürdüyün təzə ürək,
Azadlıqsız xəstə kimi döyünəcək.
Bernard, Bernard, əzab vermə insanlara.
Bacarırsan azadlıq ver
Qəlbi dustaq olanlara.
Köçürdüyün sağlam ürək
Azadlıqsız xəstə kimi döyünəcək!..

1976

PROKRUST

Qədim Yunanıstanda belə əfsanə varmış:
Orda Prokrust adlı qorxunc qaçaq yaşarmış.
Keçidləri, bəndləri, bərələri kəssə də,
Yolçuların üstünə səmum kimi əssə də
Kimsədən bir çöp belə almazmış həmin qaçaq,

Onun daha dəhşətli adəti varmış ancaq,
Əylədiyi yolçunu uzadarmış tez yerə,
Tutduğunun yanında özü də uzanarmış.
Yolçunun boyu ondan artıq olsa bir qarış –
Prokrust o dəqiqə əl atarmış xəncərə,
O kəsərmiş artığı ya ayaqdan, ya başdan.
Yolçu Prokrustdan qısa olduğu zaman
Düzəltdiyi dəzgaha salarmış qaçaq onu.
Dartaraq öz boyuna çatdırarmış boyunu.
Belə məna verərmiş bu dəhşətli əngələ:
"Gərək hamının boyu mənimkiylə tən gələ!"
O vaxtdan illər keçib, dəyişibdir zamana,
Başqa Prokrustlar gəlib indi cahana.
Onlar qaçaq deyildir, əllərində hökm var,
Onlar beyin kəsirlər, fikir tarazlayırlar.
Deyirlər mənim kimi düşün, anla, danış, din,
Fikirlər eyni olsun mənim fikirlərimin.
Mənim kimi nəğmə de, mənim kimi oxu, yaz.
Mənim fikirlərimin fövqündə durmaq olmaz!
Düşüncələr, duyğular bir qəlibə salınır,
Qəlibə sığmayandan min intiqam alınır.
Dühaların kitabı tonqallara çatılır,
İşıq dolu beyinlər zindanlara atılır.
Prokrust hər əsrdə bir cür çıxıbdır üzə –
Gözləri oya-oya, başları üzə-üzə.
Prokrustlar, "ənəlhəq" söyləyəndə Nəsimi,
Dərisini çıxartdı əynindən köynək kimi.
Cordano Brunonu, Halileyi, Yan Qusu
Onlar salmaq istədi fikir qəliblərinə.
Neçə nəmli zindanda bu gün mərdlər qan qusur,
Zəkalar qılınc kimi qına salınır yenə.
Bu gün qanndal vuraraq düşüncəyə, beyinə
Prokrustlar dünyada hökmfərmandır yenə.

1975

***

Ah, neçə ünvana getmir ayağım,
Neçə qapı zəngi cingildətmirəm.
Gör neçə nömrəni yığmır barmağım,
Nə qədər həyətə, evə getmirəm.

Mən niyə vəfasız olmuşam belə?
Bu qədər dönüklük kimdə tapılar?
Nədəndir, nədəndir bəs ildən-ilə
Üzümə açılmır tanış qapılar?

Gah aşlı, gah da ki, pendir-çörəkli
Daim açıq olan süfrələr hanı?
Hanı o gülümsər, mənə gərəkli
Sözlü, zarafatlı çöhrələr hanı?

Yoxsa dost evləri çıxıb yadımdan?
Xəyala gedirəm mən bir anlığa...
Bir dost ünvanını gəzdiyim zaman
Yolumu salıram qəbiristanlığa...

NƏ İSTƏYİRƏM

Nə sənintək çatım uca bir rütbəyə,
Nə var-dövlət, nə bağça-bağ istəyirəm.
Taleyinin axırını görüm deyə
Səndən bir gün çox yaşamaq istəyirəm.

Sən ağa göy, göyə qara deyə-deyə
Ucalırsan pillə-pillə gündən-günə.
Qamətini sən ikiqat əyə-əyə
Qovuşursan hər arzuna, istəyinə.

Dünən başqa sözlər idi dediklərin,
Bu gün başqa hava olub çaldıqların.
Bu gün onun bəhrəsidir yediklərin,
Bir dilənçi payı kimi aldıqların.

"Dost" bu ali həqiqətə sən də inan:
Yüz alçaqlıq boy atsa da ucalmayır.
Gəncliyində ləyaqətlə yaşamayan
Təmiz, müdrik insan kimi qocalmayır.

Elə bilmə ünvanına pis deyirəm,
Zaman özü açacaqdır paxırını.
Səndən bir gün çox yaşamaq istəyirəm
Görmək üçün taleyinin axırını.

1977

YALAN

Başçı yalan danışsa
Ellər çəkər xəcalət.
O torpaqda, o yerdə
İtər xeyir-bərəkət.
Gül-çiçəklər saralar,
Vaxtsız solar bahar, yaz.

Sevən yalan danışsa
Ləkələnər məhəbbət.
Dönüklük at səyirdər,
Ölər vəfa, sədaqət.
Dodaqda nəğmə donar,
Susar kaman, telli saz.

Şair yalan danışsa
Qara geyər həqiqət.
Göydə günəş qaralar,
Örtər torpağı zülmət.
Allah yalan danışar,
Şair yalan danışmaz!

Budur şair yalanı,
Dinləmişəm onu mən,
Dinləmişəm onu mən
Bir şairin dilindən:

"...Bir qolsuz əyləşibdir
Piano arxasında,
Kor not varaqlarını
O çaldıqca çevirir.
Bir lal nəğmə söyləyir
Səhnənin ortasında,
Kar dinləyir, düşünür,
Kədərlənir, sevinir..."

1977

QADAĞAN ZƏRBƏLƏR

Küçənin ortasında,
Meydan açıb üç nəfər,
İkisi təkləyibdir
Bir çeşməkli oğlanı.
Lakin o çeşməklinin
Endirdiyi zərbələr
Hərdən torpağın üstə
Sərir iki cavanı.

Çeşməkli yaman vurur,
Tablamır rəqibləri.
Görünür, o haqlıdır,
Haqlılar güclü olur!
Haqlıdırsa, görürsən,
Bir ordunun hünəri
Səhər nəsimi kimi
Axıb bir qəlbə dolur.

Yaman vurur çeşməkli!
Biri onu təkləyir,
Çeşməyini gözündən
Vurub salır da qəsdən.
İksinə can verməyən

Uşaqtək imək̈leyir,
Şüşələnmiş gözünü
Gəzir asfaltın üstə.

Çeşməyi təpiyinin
Altına salıb biri,
Bir cüt nurlu ulduzu
Sanırsan ayaqlayır.
Elə bil tapdalanır
Səhərin şəfəqləri.
Günəş, qəmər elə bil
Ayaqlanır, ağlayır.

Çeşməyini itirmiş
Gözlər gəzir hədəfi,
Əl-ayaqla zərbələr
Endirir o havaya
Neyləsin?
Heç nə görmür,
Əl atanda hər dəfə
O cavanın zərbəsi
İtib gedir havayı.

İki yandan düşürlər
Üstünə o cavanın,
Hara gəldi vururlar,
Gözü görmür,
O, təkdir.
Bu qadağan zərbədir,
Belə olmaz!
Dayanın!
Bir də belə vursanız
Dözə bilməyəcəkdir!

Fəqət aman diləmir,
Yaxşı baxın gözünə.
Qadağan zərbələrdən

Əl saxlayın siz gəlin!
Gətirin çeşməyini
Taxın onun gözünə.
Görə bilsin hədəfi, –
Sonra beşiniz gəlin!

BİZƏ ELƏ GƏLİR Kİ...

Ən gözəl şey bizdən uzaq olandı,
Ən qiymətli – əlimizə çatmayan.
Ən maraqlı – bizə yasaq olandı,
Ən dərin söz – ağlımıza batmayan.

Böyük alim – danışmayıb susandı,
Böyük təbib – başını çox bulayan.
Böyük şair – dumanlı söz yazandı,
Böyük natiq – sözü sözə calayan.

Yaxşı kitab – kitabların qalını,
Vəfalı dost – dostluqdan çox danışan,
(Arı heç vaxt tərifləməz balını,
Gecə-gündüz çalışar ki, dola şan.)

Parıldayan nurböcəyi, şüşəni,
Eh, nə qədər qızıl sanıb gözümüz!
Bu təzadlar girdabına düşəli
Özümüzü aldadırıq özümüz.

1976

ZİDDİYYƏTLƏR

Bağışlaya bilmirəm, yaman sınıbdır ürək,
Sevirdim, sevdiyimi indi sevə bilmirəm.
Məhəbbəti, ilqarı özü qırdı şüşətək,
Yenə qədəm qoyummu, mən bu evə? Bilmirəm...

Bir şeir yazammıram yuxusuz qalsam belə,
Həm də rahatlıq duyub bir an yata bilmirəm.
Ünsiyyət tapammıram ilham ilə, təb ilə,
Həm də dönüb qadıntək təbi ata bilmirəm.

Məhəbbətmi, həvəsmi çəkir sizin tərəfə,
İki addım atmamış qayıdıram geriyə.
"Getməyəcəm!" inamla söz versəm də bu dəfə
Yenə sizə gəlirəm mən yeriyə-yeriyə.

İstəyirəm birbəbir ürəyimdən keçəni
Çırpam onun üzünə bir amansız şillətək.
Lakin onu görüncə buruluram küçəni,
Fövrən yana dönürəm bir çovumuş güllətək.

Ziddiyyətlər içində keçir ömür, keçir gün,
Çöhrəmdə göz yaşıyla gülüş ünsiyyətdədir.
Bəlkə mən yanılıram, bəlkə insan ömrünün
Mənası, gözəlliyi elə ziddiyyətdədir?!

1976

***

Xəzəri bulanıq gördüm bu axşam,
Ərşə çəkilmişdir mavi şəffaflıq.
Orda əks olmurdu min-min yanan şam,
Hanı o duruluq? Hanı o saflıq?

Enmirdi sulara ağ qağayılar,
Görmürdüm köksündə "gümüş sərvi də".
Sökmüşdü suları bir dəli ruzgar,
Susmuşdu dənizdə mavi şərqi də.

Köksündə tələtüm gəzmişdir bəlkə?
Dünən sakit idi! Durulmuşdu o.
Xəzər mavilikdən bezmişdi bəlkə,
Yoxsa təmizlikdən yorulmuşdu o?

1976

GECİKMİŞ SƏRNİŞİN

Bütün sərnişinlər tutdular yeri,
Qatar səsli-küylü yola düzəldi.
Getdi,
dalda qoydu kəndi, şəhəri...
Bu vaxt bir sərnişin vağzala gəldi.
O mənəm...
Gecikmiş sərnişin mənəm...
Çiyni ağır yüklü, ömrü tən yarı.
Gecdir...
Köməyimə yığıla aləm,
Haqlaya bilmərəm gedən qatarı.

BAKIDA İSTİ

Yaman isti keçir bu il havalar,
Bürkü asılıbdır göydən cunatək.
Havada qurğuşun ağırlığı var,
Bir udum meh ola, bir əsim külək!

Gedirsən – üzünə alov toxunur,
Dursan – ayağın yapışır yerə.
Bürkü gözlərindən qovur yuxunu,
Damlarda əriyir qır qətrə-qətrə.

Gündüzdən qızıbdır daş da, divar da,
Gecəyə baxırsan gündüzdən isti,
Büzüşüb, soluxub göy yarpaqlar da,
Bir yanar tonqaldır evlərin üstü.

İnsan gileyini, şikayətini
Sanki eşitmişdi ana təbiət.
Axır ki, göstərdi mərhəmətini,
Buz rəngli bir xəzri əsdi nəhayət.

Əsdi, iqlim-iqlim qovdu bürkünü,
Solan yarpaqlar da qalxdı, dikoldi.
Hərarət götürüb qalın kürkünü
Harasa uzağa qaçdı, əkildi.

Mahir təbib idi xəzri elə bil,
Düşdü qızdırmadan yer üşütməyə.
Təbiət bir zalım hökmdar deyil,
İnsan nalə çəkə, o eşitməyə.

1975

***

Qonşu kupedəki cavan almanla
Durmuşam vaqonun dəhlizində mən.
Kişisən qəribin dilini anla
Almanca bir kəlmə bilmirsənsə sən.

O, Bonn şəhərindən bizim məkana
Gəlibdir gəzməyə, ellər aşaraq.
Yanında arvadı – cavan bir ana,
Qolunun üstündə təzə bir qundaq.

O süzür dağları, geniş düzləri,
Görən xoş gəlirmi ona bu yerlər?
Qatar sürət ilə gedir irəli,
Yenə relslər ustə açılır səhər.

Rostova az qalır, sakit Don axır,
Budur, uçuq körpü durur pərişan.
Elə bil başımda şimşəklər çaxır,
Yanımda yenə də o cavan alman.

– Qanlı müharibə! –
Anlamır məni
O azərcə bilmir, mən də almanca.
Sinələr dağlayan iki kəlməni
Ona işarəylə deyirəm ancaq.

Burda tərcüməçi nəyə gərəkdir,
Yox, yox, dilmancsız da anladı deyən.
O uçuq körpüdən gözünü çəkdi,
Baxdı arvadına, uşağa birdən.

Axı o atadır, axı daş deyil,
Götürüb qundağı köksünə sıxdı.
Körpünü dağıdan bomba elə bil
Bu dəmdə yenidən partlayacaqdı.

O girdi kupeyə;
Fit verib qatar
Keçdi Don çayını təzə körpüdən.
Atanın yerinə oğlu utanar
Gənc alman xəcalət çəkirdi deyən...

1961

TALIŞ QIZI

İnsan çöhrəsinə rəng də, boya da
Gərək təbiətin özündən keçə.
O, gərək nəğməylə sübhü oyada,
Günün ilk şəfəqi gözündən keçə.

Mən talış qızının yanağındakı
Allığı görəndə buna inandım.
Səma qarşısının hanasındakı
Qövsi-qüzeh onun donudu, sandım.

Örpəyi göylərin bulud tirməsi,
Dişləri talışın quzey qarıdır.
Buket çay gözünün qara sürməsi,
Nəfəsi İstisu qaynaqlarıdır.

Sanki təbiətin hər boyasını
Hüsnünə toplayıb talış qadını.
Bəxş edib cahana qız ağasını,
Həm də kinonağa* qoyub adını.

* Talış dilində "qızlar ağası" deməkdir.

Axmaz, "axma!" desə axan çaya da
Kimdir o gözəlin sözündən keçə?!
...İnsan çöhrəsinə rəng də, boya da
Gərək təbiətin özündən keçə.

1975

***

Payızda boz sulara durub fikir verəsən,
Kür öz sahillərilə nə danışır görəsən?!
Bəlkə bir zaman mənim sənə dediklərimi
Kür öz sahillərinə söyləyir insan kimi.
Bəlkə onunçün belə sahillər cadarlandı?
Yoncalıqlar saraldı, söyüdlər qubarladı?
Çinar xəzəllərini tökdü göz yaşı kimi,
Haray çəkdi turaclar bağrının başı kimi?
Bəlkə bu nə sahilin, nə də Kürün səsidir, –
Sıxıntılı fəsilin – payızın nəğməsidir?
Bir aləmdir, doğrusu, durub qulaq verəsən,
Kür öz sahillərilə nə danışır görəsən?

1970

***

Mən baxıram bayaqdan
Saralan yarpaqlara.
Xəzəl olub tökülür,
Qarışır torpaqlara.

Hər yarpaq təbiətin
Bu hökmündən halıdır,
Vaxtdır,
onlar budaqdan
Hökmən ayrılmalıdır.

Dili ola yarpağın,
Sən də qulaq verəsən.
Budaqdan ayrılanda
O nə deyir görəsən?!

1976

AZAD DUSTAQ

Bir sıra kapitalist ölkələrinin başçıları güllə keçməyən xüsusi şüşələrlə qorunmuş tribunalarda əyləşir, onların iqamətgahı tanklarla və zirehli transportyorlarla qorunur.

QƏZETLƏRDƏN

Nədir bu vahimə, nədir bu qorxu,
Dolaşır qəfəsdən qaçan şir kimi?!
Qəlbini rahatlıq, gözünü yuxu
Tərk edib dərbədər mühacir kimi.

Nədir güllələbatmaz sədlər, zirehlər,
Bu sayaq kimlərdən sən qorunursan?
Divarlar dalından açılan səhər
Səni salamlayır işıqsız, pünhan.

Sənin əllərində fərman, ixtiyar,
Səni hakim edib doğma diyarın.
Səndə bir ölkənin tacı, taxtı var,
Hələ əsləhəli o qoşunların!

Kimdən çəkinirsən, qorxursan nədən?
Sərbəst bir addım da atmırsan, niyə?
Zirehlər içində olsan belə sən
Rahat bir yuxu da yatmırsan, niyə?

Səni qucağına alan binaya
Səninlə bir girib qorxu, səksəkə,
Çevrilib nəhəng bir dustaqxanaya
Sənincün bu küçə, şəhər, bu ölkə!

Yatırsan silahlar əhatəsində,
Gəzirsən dörd yanın silahlı əsgər,
Söylə, hökmdar da öz ölkəsində
Qorxub vahiməyə düşər bu qədər?

Bu sənin öz xalqın, öz millətindir,
Səni başçı seçdi fərli oğultək.

Bəs niyə sənincün belə çətindir
Onlarla silahsız gəlib görüşmək?

Bəzən də çıxırsan kəndə, şəhərə
Dövrəndə zirehli silahdan meşə.
Yanaşa bilmirsən bircə nəfərə,
Başçı belə gedər xalqla görüşə?

Başçı belə gedər xalqın yanına?
Başçı oğrun-oğrun yola çıxarmı?
Xalqın ürəyinə, dəstərxanına
Başçı bir ağaclıq yoldan baxarmı?

Gəzirsən bir səyyar həbsxanada,
Süngülər – barmaqlıq, əsgərlər – divar.
Gələmmir yaxına doğma ana da,
Dustaq sən özünsən, ya xalq, hökmdar?

Bax, sənə zillənən gözlərdə nifrət,
O nifrət deşməzmi silah-çəpəri?
Ölkədə səfalət, aclıq, rəzalət,
Sənisə bunlardan yoxdur xəbərin.

Sənisə günlərin mərmər salonlar,
Zəngin ziyafətlər qoynunda keçir.
Sənin öz süfrəndə quş südü də var,
Xalqın kədər yeyir, xalqın qəm içir.

Səni öz xalqından qoruyan süngü
Çevrilə bilməzmi sənin köksünə?
Zirehli toplar da, tanklar da bir gün
Tuşlaya bilməzmi lüləni sənə?

Sən xalqın yanında açıq bir ürək,
Yalansız, riyasız inam, etibar.
Bir parça azadlıq, bir parça çörək
Aparsan heç nədən qorxma, hökmdar!

1977

ELLADANIN NƏVƏSİNƏ

Yunanıstan torpağının
Əzəli bir tarixi var.
O qədimdir günəş qədər,
Səma qədər, ulduz qədər.
Afinada yaranmışdır
Daş məbədlər, ilk allahlar,
Bu torpaqda yaranmışdır
Xoş nəğmələr, tunc heykəllər.

Nə zamandır dünya bilir
Akropolun şöhrətini.
Hələ Homer – qoca Homer,
"İliada", "Odisseya".
Hər bir yunan tanımaqçın
Öz yurdunun qüdrətini
Vətəninin keçmişindən
Nələr deyər, nələr sayar!

Bəli, ancaq keçmişindən!
Yunanıstan, bəs bu günün?!
Bu günündən utanmırmı
Elladanın nəvələri?
De, Heraklın hanı bu günü?
Herkulesin hanı bu gün?
Yad çəkməsi tapdalayır
İndi onlar gəzən yeri.

Keçmişinlə fəxr edirsən,
Dəm vurursan tarixindən
Hey deyirsən dönə-dönə:
Babam belə, nənəm belə.
Yunan oğlu, yaxşı olar
Bircə yol da deyəsən sən –
O babamdır, o nənəmdir,
Baxın, bu da mənəm belə!

Yadellilər qarşısında
Tarixini varaqlama.
Qolundakı kölәliyin
Zəncirini qır, at bu gün!
Keçmişinin ləkələnən
Şöhrətiyçün çox ağlama,
Keçmişinə layiq olan
Bu gününü yarat bu gün!

Səni kölə edənə bax,
Tarixi yox, keçmişi yox.
Yarımvəhşi yaşayırdı,
Akropolu quranda sən.
Səni adam saymır bu gün,
Ərzə meydan oxuyur o.
Səni ələ salıb gülür
Babandan dəm vuranda sən.

Keçmişinlə az fəxr elə,
Az söhbət aç tarixindən.
Onu səndən alan yoxdur...
Az de babam, nənəm belə.
Yunan oğlu, yaxşı olar
Bu gün qalxıb deyəsən sən:
O babamdır, o nənəmdir,
Baxın, bu da mənəm belə!

1964

Yadıma sən düşürsən

***

Ən çox saçlarını xoşlayıram mən,
Tökülə çiyninə şəlalə kimi.
Ürəyim yanınca içəm ürəkdən
Tellər axınını piyalə kimi.

Elə bil mənimlə bəhs eləyirsən,
Yığıb saçlarını sancaqlayırsan.
Şəlalə telləri həbs eləyirsən,
Onları dustaqda çox saxlayırsan.

Yalvarış gətirir bir mərhəmətə
Dünyanın ən zalım hökmdarını.
Mən özüm gəlmişəm axı, minnətə,
Aç, burax günahsız dustaqlarını.

1979

***

Sıx buludlar saçaq-saçaq,
Yağış səni isladacaq,
Gəlmə, gülüm, gəlmə, gülüm,
Bu yandan da külək əsdi,
Dilə tutma məni, bəsdi,
Gəlmə, gülüm, gəlmə, gülüm.

Düzdür, sənsiz darıxıram,
Yollarına hey baxıram,
Ancaq gəlmə, islanarsan.

Sənə gəlmə deyə-deyə
Dikilibdir gözüm göyə,
Ah, bu yağış, ah, bu leysan!

Əgər gəlsən, deyirəm mən,
Bu yağışdan, bu küləkdən
Qoruyarmı səni çətir?
Dilim deyir: gəlmə, gəlmə,
Ürəyimi belə bilmə,
O deyir: gəl, sevinc gətir!

Yox, yox, gəlmə, qadan alım,
Başıaçıq, ayaqyalın
Mən yanına özüm gəllərm.
Özüm gəllərm, əssin külək.
Yağış yağsın sellənərək.
Lap daşqına düşsün aləm.

Gəlmə, gəlmə... Elə bu an
Kimsə girir astanadan,
Paltarı su, saçları su,
Tanıyıram gələni mən.
Bir cüt odlu gözlərindən
Görürəm kim olduğunu.
– Qadan alım, niyə gəldin?
Həsrətimi nədən bildin?
Deməli sən belələnmiş?!
Hər tərəf su, sən bir ada,
Necə gəldin bu havada?
Sən məndən də dəlisənmiş!

1979

***

Sevgidən danışan şeirlərimi
Siz əsla yazmayın mənim adıma.
Yox, yox, sevməmişəm mən sizin kimi,
Gizli görüşlər də gəlmir yadıma.